Xalqın qəzeti!

# Xalq qəzeti

№ 182 (30298) 26 avqust 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə genişmiqyaslı yenidənqurma işləri aparır. Biz sıfırdan 9 yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə qururuq.**

# Dağlar qoynunda quruculuq meydanı

## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər ediblər

### “Soyuqbulaq” kiçik SES işə salınıb



**Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı və birinci xanım “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan “Soyuqbulaq” Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak ediblər.

“AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər rayonunun ərazisindən keçən bol sulu Tərtər çayı üzərində yerləşən “Soyuqbulaq” Kiçik Su Elektrik Stansiyası “AzərEnerji” tərəfindən tamamilə yenidən qurulub. Ərazini tərk edən düşmən tərəfindən tamamilə dağıdılan bu stansiyada bütün avadanlıq və yararlı hissələr sökülərək daşınıb, daşınması mümkün olmayan hissələr isə məhv edilib. İşğaldan azad edilən ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, əsasən “AzərEnerji” tərəfindən su elektrik stansiyasının baş suqəbuledici qurğusu, 6 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub.

*(ardı 2-ci səhifədə)*

# Humanizmin Mehriban Əliyeva bənzərsizliyi



**Məşhur rus ədəbi tənqidçisi və publisisti V.Belinski humanistliyi şüur və təhsillə inkişaf etmiş insanseverlik kimi dəyərləndirirdi. Ədibin baxışından gələnən qənaət bu idi ki, humanistlik üçün təkcə yalnız gendən gələn nəcib xüsusiyyətlərin daşıyıcısı olmaq kifayət deyil. Müəyyən nəslə, soykökə bağlı göstəricilər mütləq təhsillə çulğalaşmalıdır. Bu çulğalaşma həmin göstəricilərə şüur qazandırır, nizam formalaşdırır. Mövcud trayektoriyada yaranmış mənzərə isə artıq dəyərə çevrilir. Elə bir dəyərə ki, ondan bütöv bir toplum, ümumən cəmiyyət, ən əsası isə xalq faydalanır.**

Tam qətiyyətlə söyləyə bilərik ki, Azərbaycanın birinci xanımı, Birinci vitse-prezidenti Mehriban Əliyeva malik olduğu nəslə məxsus nəciblik keyfiyyətlərini dərin biliyi ilə çulğaşan humanizm nümunəsidir. Onun humanizmi ölkəmizin hüdudlarını aşan hadisədir. Vətənimiz Azərbaycanı milyonların gözündə dəyərə çevirən hadisə.

Bu gün – 26 avqust tarixi canlı humanizm nümunəsi, bu dəyərə qlobal libas biçməyi bacarmış, onu parlaq ictimai hadisəyə çevirmiş Mehriban xanımın dünyaya gəldiyi gündür.

*(ardı 5-ci səhifədə)*

# Uruqvay Şərq Respublikasının Prezidenti Zati-aliləri cənab Luis Lakalle Pouya

**Hörmətli cənab Prezident,**

Uruqvay Şərq Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Uruqvay arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 avqust 2023-cü il**

# Birinci vitse-prezident Mehriban Əliyevanın fotopaylaşımı



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instaqram” səhifəsində Kəlbəcər və Laçından fotolar paylaşıb.**

**Paylaşımda deyilir: “Kəlbəcər və Laçında! Allaha min şükür. 25.08.2023.”**

# Xankəndi ilə dialoqu “torpedolayan” kimdir?

**Belə məlum olur ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatı imzalamaqla böynuna götürdüyü öhdəliklərin böyük qismini yerinə yetirməkdən boyun qaçıran Ermənistan hakimiyyəti Bakının xoşməramlı, humanist davranışından sui-istifadə etmək yolunu tutub. Əgər belə olmasaydı, İrəvanın ayağı bu dərəcədə yer almaz, özündə Azərbaycana qarşı xüsusi şərtlər irəli sürmək cəsarətini tapmazdı. Hayastan baş naziri Nikol Paşinyanın hökumətin iclasında dilə gətirdiyi bəyanat xarakterli açıqlamalarına da məhz bu nöqteyi-nəzərdən yanaşmaq daha düzgün olar. Məğlub ölkənin “komandanı” “daxili bazara” hesablandığı şübhə doğurmayan belə açıqlamaları ilə, az qala, Azərbaycana müharibə elan edirmiş kimi davranır.**



Paşinyan deyir ki, “Bakı ən müxtəlif üsullarla Stepanakertlə (Xankəndi – red.) dialoqu “torpedolayır” və hər şeyə görə məsuliyyəti Dağlıq Qarabağın (?) üzərinə atmağa çalışır”. Dağlıq Qarabağ (?) ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı məsələlər Bakı–Stepanakert (Xankəndi) dialoqu vasitəsilə, beynəlxalq mexanizm (?) çərçivəsində həll olunmalıdır. Bu məsələdə Ermənistan Respublikasının mövqeyi dəyişməz qalır”. O, üçtərəfli Bəyanatın 7-ci bəndinin yerinə yetirilməsinin vacibiyindən də danışıb.

*(ardı 6-cı səhifədə)*

# Şarl Mişelin susqunluğu pozması



**Deyəsən, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan və Ermənistan arasındakı danışıqlarda vasitəçi olduğunu yada salıb. Hər halda onun susqunluğu pozmasını, ilk baxışdan, məhz belə qiymətləndirmək mümkündür. Ancaq cənab Mişel susqunluğunu bir qədər fərqli formada pozub. “Azadlıq” radiosunun Brüsseldəki mənbəyinə inansaq, o, “Dağlıq Qarabağ hakimiyyəti” nümayəndələrini Azərbaycanla mümkün qədər tez dialoqa başlamağa çağırıb.**

Əlbəttə, Mişelin “Dağlıq Qarabağ hakimiyyəti” kimi ifadələrdən istifadə edib-etmədiyini, bu ifadənin “Azadlıq” radiosunun öz məhsulunun olub-olmadığını söyləmək çətindir. Onun “Bakı–Xankəndi dialoqu” formulunu dilinə gətirib-gətirmədiyini demək də, həmçinin. Ş.Mişel məsələyə bu tərzdə yanaşıbsa, deməli, səhv edib...

*(ardı 6-cı səhifədə)*

# Laçın yenidən laçınlaşır

**Yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Yurda dönən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları – işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında təmir edilən və ya yenidən tikilən evlərdə məskunlaşırlar. Müasir üslubda bərpa olunmuş bu evlərdə və həyətlərdə hər şey onların rahatlığına xidmət edir. Hazırda Laçın şəhərində 234 ailənin (904 nəfər), ümumilikdə isə rayonda 254 ailənin (992 nəfər) daimi məskunlaşması təmin edilib. Məskunlaşanlar arasında həmkarımız Arzu Zeynallının doğmaları da var.**

*(ardı 10-cu səhifədə)*

# "Soyuqbulaq" kiçik SES işə salınıb

(əvvəli 1-ci səhifədə)



Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı, iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün uzunluğu 6 kilometr olan 6 kV-luq kabel xətti çəkilib və eyni zamanda, optik kabel xətti ilə də əlaqələndirilib. Ərazidə fors-major hallar üçün ehtiyat dizel generatoru da quraşdırılıb.

Dövlətimizin başçısı "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edildi ki, "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyası enerjisistemə tam inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Stansiyada il ərzində 15,5 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

# "Çıraq-1" və "Çıraq-2" kiçik SES-lərin açılışı





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Kəlbəcər rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib.

Dövlətimizin başçısına stansiyalarda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Kəlbəcər rayonunun qərbində Tərtər çayı üzərində yerləşən 8,33 meqavat gücündə "Çıraq-1" və Qaraarxac çayı üzərində 3,6 meqavat gücündə "Çıraq-2" Kiçik Su Elektrik stansiyaları "AzərEnerji" ASC tərəfindən tamamilə yenidən qurulub.

Qeyd edək ki, 2022-ci ilin iyununda Prezident İlham Əliyevin tikinti işlərinin gedişinə baxış keçirdiyi bu elektrik stansiyaları ən müasir avadanlıqla təchiz olunub. Ərazidə iqlim və relyefin sərt olmağına baxmayaraq, tikinti işləri cədvəldən əvvəl başa çatdırılıb.

Burada çayın 50 faiz təminatı nəzərə alınmaqla ekoloji normanın saxlanılması üçün derivasiya boruları subasardan hündür hissədə quraşdırılıb. Həmçinin sel suları nəzərə alınaraq 1750 metr mütləq yüksəklikdə yerləşən idarəolunan baş suqəbuledici qurğu tikilib, eləcə də 7 kilometr uzunluğunda derivasiya boruları yenidən çəkilib.

"Çıraq-1" və "Çıraq-2" stansiyalarının hər biri üçün maşın zalı tikilib, Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir ekoturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb. "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasının ərazisində yeni 110 kV-luq açıq paylayıcı qurğu inşa edilib. 35 kilometr uzunluğunda 35 kV-luq "İstisu" elektrik verilişi xətti yenidən qurularaq yeni yarımstansiyaya qoşulub, optik kabel xətti çəkilib. Bu yarımstansiya "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" Kiçik Su Elektrik stansiyalarında istehsal edilən elektrik enerjisinin ölkənin enerjisisteminə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır. Eynilə 3,6 meqavat gücündə "Çıraq-2" Su Elektrik Stansiyasının da baş suqəbuledici qurğu, 3 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada bir ədəd Avropa istehsalı olan yaşıl sertifikatlı müasir ekoturbin, generator, idarəetmə və avtomatika panelləri quraşdırılıb. "Çıraq-1" və "Çıraq-2" stansiyaları enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Hər iki stansiyada ümumilikdə il ərzində 35 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal olunacaq.

Prezident İlham Əliyev "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarını işə saldı.

Qeyd edildi ki, "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" Kiçik Su Elektrik stansiyalarından əlavə, bu günə kimi Kəlbəcər rayonunda 4,4 meqavat gücündə "Kəlbəcər-1", 6,3 meqavat gücündə "Qamışlı" və 3,4 meqavat gücündə "Meydan" Kiçik Su Elektrik stansiyaları yenidən qurularaq istismara verilib. Hazırda Kəlbəcər rayonunda beş yerdə ümumi gücü 48,3 meqavat olan kiçik su elektrik stansiyalarının tikintisinə başlanılıb. Bununla da 2024-cü ilin birinci rübündə Kəlbəcər rayonunda ümumi gücü 75,5 MVt, illik enerji istehsal potensialı 230 milyon kilovat-saat olan 10 kiçik su elektrik stansiyası mövcud olacaq.



## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

**Hörmətli Mehriban Arif qızı.**

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkələrimiz arasında müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndiririk. Əminəm ki, konstruktiv çoxplanlı əlaqələrin gələcək inkişafı da Rusiya və Azərbaycanın dost xalqlarının maraqlarına tam cavab verəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah və dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

**Hörmətlə,**

**Vladimir PUTİN,**
**Rusiya Federasiyasının Prezidenti**

# "İstisu" qaynağı dirçəldilir

**Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda "İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlər ilə tanış olublar.**





Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər "İstisu" mineral sudoldurma zavodu 1981-ci ildə inşa edilib. Zavod 1991-ci ilin sonlarında fəaliyyətini dayandırıb. Yeni tikiləcək "İstisu" zavodu 7,8 min kvadratmetr ərazini əhatə edəcək. Müəssisədə ikinövbəli əsasda təxminən 100 nəfər işlə təmin olunacaq. Zavodda Almaniya şirkəti tərəfindən təchiz olunan şüşə və plastik qablaşdırma istehsal xətləri fəaliyyət göstərəcək. Şüşə dolum xəttinin nominal gücü saatda 16 min, plastik dolum xəttinin nominal gücü isə saatda 8 min ədəd təşkil edəcək. Aylıq istehsal gücü isə 8 milyon ədədə yaxın olacaq.

"İstisu" Müalicə-İstirahət Kompleksinin layihəsi barədə məlumat verilərkən bildirildi ki, 1927-ci ildə fəaliyyətə başlayan bu sanatoriya keçmiş Azərbaycan SSR-də müttəfiq əhəmiyyətli ikinci böyük kurort hesab edilirdi. Kompleksin ərazisində üç yataq korpusu, bir müalicəvi vanna xidməti binası, bir poliklinika korpusu fəaliyyət göstərirdi. Sovet dönəmində bu kurort-sanatoriya kompleksi ildə 50 min nəfəri qəbul etmək imkanına malik olub. Buraya əsasən həzm sistemi xəstəliklərinin müalicəsi üçün müraciətlər edilirdi.

Bərpa ediləcək "İstisu" Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 32 min kvadratmetr olacaq. Kompleksdə 145 nömrə, eləcə də 10 kottec yaradılacaq.

Kompleksdəki SPA Mərkəzində isə termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, istirahət zonaları, gözəllik salonu mövcud olacaq. Burada müxtəlif iaşə obyektləri – restoranlar, uşaq əyləncə mərkəzi, oyun otağı, sportskafe, karaoke otağı, kafeteriya da qonaqlara xidmət göstərəcək.

Qeyd olundu ki, "Aşağı İstisu" mənbəyindən alman mütəxəssislər tərəfindən nümunələr götürülüb, suyun analizi və testi həyata keçirilib. Aparılan analizlər və balneoloji rəylərə əsasən, İstisu təbii mineral suyu fizioloji, metabolik və müalicəvi təsirlərə malikdir. Bu isə mədə-bağırsaq traktının funksional pozğunluqlarının müalicəsi və həzm funksiyasının stimullaşdırılması, yaşlılarda natrium və maye çatışmazlığının, ortostatik tənzimləmə pozğunluqlarının, sidik yollarında infeksiyaların müalicəsi, kalsium oksalat, sistin və sidik turşusu daşlarının profilaktikası və metafilaksisi, uşaqlarda və yeniyetmələrdə diş kariyesinin profilaktikası, eləcə də böyüklər üçün dəstəkləyici təsir baxımından çox faydalıdır.

# Zar kəndinin təməli qoyulub



**Avqustun 25-də Kəlbəcər rayonunun Zar kəndinin təməli qoyulub.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Zar kəndində ümumilikdə 855 ailənin məskunlaşması planlaşdırılıb. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 243 hektardan çox torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 547 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 547 evin 131-i ikiotaqlı, 289-u üçotaqlı, 92-si dördotaqlı, 35-i beşotaqlı olacaq. Burada, həmçinin 528 şagird yerlik məktəb, 100 yerlik uşaq bağçası tikiləcək.

Prezident İlham Əliyev Zar kəndinin təməlini qoydu.

Qeyd olundu ki, Zar kəndində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə olunacaq. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Sonra xatirə şəkilləri çəkdirildi.

# "Mişni" və "Alxaslı" kiçik SES-ləri istifadəyə verilib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı Laçın rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Laçın rayonunda Həkəri çayının ən böyük qolu olan Hoçaz çayı üzərində yerləşən və ermənilər tərəfindən tamamilə dağıdılan 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" Su Elektrik stansiyaları Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq tam yenidən qurulub. Hazırda "Ağbulaq" Su Elektrik Stansiyasında artıq son tamamlama işləri aparılır. "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyalarında isə işlər başa çatdırılıb.

Qeyd olundu ki, "Mişni" Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması layihəsi çərçivəsində baş suqəbuledici qurğu, 7,2 kilometr uzunluğunda derivasiya boru xətti və maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün 25 meqavoltamper gücündə 110/10 kV-luq yarımstansiya tikilib, 18 kilometr uzunluğunda 110 kV-luq elektrik verilişi və optik kabel xətləri çəkilib. Bu yarımstansiya "Mişni" stansiyası ilə yanaşı, "Alxaslı" stansiyasında istehsal edilən elektrik enerjisinin ölkə enerjisisteminə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır. Enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulmuş "Mişni" Kiçik Su Elektrik Stansiyasında il ərzində 23 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunacaq.

Bildirildi ki, "Alxaslı" Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması layihəsi çərçivəsində baş suqəbuledici qurğu, 4,3 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün "Mişni" Su Elektrik Stansiyasında tikilmiş 110/10 kV-luq yarımstansiyaya 8 kilometr uzunluğunda 10 kV-luq elektrik verilişi və optik kabel xətləri çəkilib. Enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulmuş "Alxaslı" Su Elektrik Stansiyasında il ərzində 17 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunacaq.

Dövlətimizin başçısı "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyalarını işə saldı.

Qeyd edildi ki, "Ağbulaq", "Alxaslı" və "Mişni" stansiyaları ilə yanaşı, bu günədək Laçın rayonunda ümumi gücü 40,5 MVt, illik enerji istehsalı potensialı 120 milyon kilovat-saat olan 5 kiçik su elektrik stansiyası yenidən qurularaq istismara verilib. Hazırda 4 stansiyanın yenidən qurulması üzrə işlər davam etdirilir. Gələn ilin birinci rübündə artıq Laçın rayonunda ümumi gücü 65,5 MVt, illik elektrik enerjisi istehsal potensialı 194 milyon kilovat-saat olan 9 su elektrik stansiyası fəaliyyət göstərəcək.

Bildirildi ki, su elektrik stansiyalarında ekoloji normalar tam qorunur. Bütün layihələr icra edilərkən çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması məqsədilə xüsusi balıqkeçirici qurğular tikilib. Avropanın yaşıl sertifikatlı avadanlıqlarından istifadə etməklə çay ekosistemi, o cümlədən flora və fauna tam qorunur, çayların məcralarında ekoloji axımdan iki dəfə artıq miqdarda su saxlanılmaqla, aşağı axım zonasının su təminatı, eyni zamanda, məcraaltı su ehtiyatının formalaşması təmin edilib. Bununla yanaşı, bu işlər görülərkən meşələrin qırılmasına, qayaların dağıdılmasına yol verilməyib, çay məcralarında hidromorfoloji dəyişikliklər edilməyib. Derivasiya boru xətləri çəkilən zaman beynəlxalq təcrübəyə uyğun xüsusi konstruksiyalardan istifadə etməklə ətraf mühitə təsirlər minimallaşdırılıb. Su elektrik stansiyalarının karbon emissiyasının azaldılmasında rolunu təsdiqləmək üçün beynəlxalq sertifikat əldə edilməsi istiqamətində iş aparılır.

Bu layihələrin sosial-iqtisadi əhəmiyyəti barədə məlumat verilərkən qeyd olundu ki, işğaldan azad edilən ərazilərdə 2021-2023-cü illərdə "AzərEnerji" ASC-nin icra etdiyi layihələr üzrə 3965 işçinin 2570-i yerli sakinlər olub. Daimi iş yerləri ilə təmin edilmiş 197 nəfərin 170-i Qarabağ və Şərqi Zəngəzur regionundan olan əhali təbəqəsindən hazırlığı kursları da təşkil edib. Bu təşəbbüs regionda yeni energetika obyektlərinin tikintisi və istismarında yerli sakinlərin məşğulluğu üçün gələcəkdə də davam etdiriləcək. Bütün elektroenergetika obyektlərində çalışan işçilərin məişət şəraitinin yaxşılaşdırılması üçün mühəndis-yataqxana kompleksləri yaradılıb.

# Beynəlxalq Hava Limanının tikintisi davam edir



**Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.**

"AzVirt" MMC-nin baş direktoru Kamil Əliyev dövlətimizin başçısına və birinci xanıma hava limanında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2025-ci ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr olacaq. Hava limanı Qorçu kəndi yaxınlığında dəniz səviyyəsindən 1800 metr hündürlükdə inşa edilir və postsovet məkanında ən yüksək dağlıq ərazidə yerləşən hava limanlarından biri olacaq.

Laçın dağlıq bölgə olduğuna görə ərazinin hamarlanması işləri davam etdirilir. Hazırda uçuş-enmə zolağının, yönəldici yolların, perronun tikiləcəyi ərazilərdə genişmiqyaslı torpaq işləri həyata keçirilir. Aeroportun beynəlxalq standartlara uyğun layihələndirilən terminal binasının sahəsi 5 min kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək. Terminal binasında bünövrənin beton işləri tam başa çatdırılıb, metal konstruksiyaların yığılması üzrə işlərin 95 faizi yerinə yetirilib. Terminalın dam örtüyü işlərinə başlanılıb. Hava limanının aeronaviqasiya qülləsi və köməkçi binalarında təməlqoyma işləri görülür.

Qeyd edildi ki, Laçın Beynəlxalq Hava Limanında yaradılacaq şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının inkişafına da imkan verəcək.

Qeyd edək ki, Laçın Beynəlxalq Hava Limanı Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən birini təşkil edir.

# Kəlbəcər–Laçın avtomobil yolu sürətlə çəkilir



**Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər–Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış olub.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına aparılan işlər barədə məlumat verdi.

Bildirildi ki, inşası sürətlə davam etdirilən 75,8 kilometr uzunluğunda yeni yol mövcud yoldan 32 kilometr qısa olacaq. I və II texniki dərəcəli bu yol ikizolaqlı və dördzolaqlı olmaqla inşa edilir. Yeni yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4163 metr olan 23 körpü də inşa edilir.

Dövlətimizin başçısına yol üzərində inşa olunacaq T-9 tuneli barədə də məlumat verildi. Qeyd edildi ki, tunelin uzunluğu 224 metrdir. İkizolaqlı tunelin eni 10,6 metrdir.

# Müasir mehmanxana kompleksinin təməli qoyulub





**Avqustun 25-də Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməli qoyulub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Laçının bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Ən müasir səviyyədə inşa olunacaq mehmanxanada rayona səfərə gələnlərin rahatlığı üçün hər cür şərait yaradılacaq. Mehmanxana kompleksi 100 otaqlı hotel binasından və 10 kottecdən, eləcə də kafe və restoranlardan, əyləncə və istirahət mərkəzlərindən ibarət olacaq. Hotel binasında 500 yerlik çoxfunksiyalı tədbir və iclas zalları da qonaqların istifadəsinə veriləcək.

Eyni zamanda, mehmanxanada açıq və qapalı hovuz, SPA mərkəzi, bouling və əyləncə, uşaq əyləncə zonası, qapalı idman zalı, yoqa otağı və açıq havada çoxfunksiyalı meydançalar yaradılacaq. Bir sözlə, yüksək xidmətlərin göstəriləcəyi mehmanxana kompleksi müasir standartlar səviyyəsində inşa olunacaq.

Sonra Prezident İlham Əliyev kompleksin təməlini qoydu.

# Mebel fabriki işə salınıb



Bildirildi ki, bərpa və quruculuq işləri istehsal müəssisələrinin yaradılması ilə paralel şəkildə davam etdirilir. Bu işlərdən biri də Laçın rayonunun sənaye zonasında yaradılan mebel fabrikidir. Müəssisədə yataq və qonaq otaqları dəstlərinin, qapıların və digər mebel məhsullarının istehsalı nəzərdə tutulub. Fabrikin illik istehsal gücü 3 min kubmetrdir. Burada Avropa ölkələrinin, Türkiyə və Çinin istehsalı olan avadanlıqlardan, Türkiyə və Rusiyadan alınan xammaldan istifadə olunacaq. İstehsal sahələrində ümumilikdə 100 nəfərin işlə təmin olunması nəzərdə tutulub.

Prezident İlham Əliyev mebel fabrikini işə saldı.

Prefabrik modul evlərin istehsalı müəssisəsi ilə tanışlıq zamanı məlumat verildi ki, burada ildə 200 ev hazırlanacaq. Prefabrik evlərə qonaq, mətbəx, yataq otaqları və sanitar qovşaq daxildir. Bu evlərin daş evlərdən üstünlüyü ondan ibarətdir ki, onlar zəlzələyə davamlı və yüksək dayanıqlılıqla yanaşı, ekoloji cəhətdən təmizdir. Həmçinin uzunömürlü və yanğına davamlı olan bu evlərin digər bir üstünlüyü isə qiymətinin daha sərfəli olmasıdır. Bu müəssisədə də 100 nəfər daimi işlə təmin olunub.

Xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinə baxış zamanı qeyd olundu ki, burada qoyun kəsimi üçün beş, inək kəsimi üçün üç modul tipli avadanlıq quraşdırılıb. Müəssisənin illik istehsal gücü 17 min baş heyvan kəsiminə imkan verir. İstehsal sahəsində kəsim, içalat təmizləmə, soyutma otağı, kiçik hissələrə ayırma, paketləmə konteynerləri yerləşdirilib. Bu müəssisədə 30 nəfər işlə təmin olunacaq.

**Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olublar.**

"Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.





# "Hoçazfilm pavilyonunun açılışı



**Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunda "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışında iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma pavilyonda yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Qarabağın çoxşaxəli nadir yaradıcılıq məkanı layihəsi olan "Hoçazfilm" studiyası Laçın şəhərində iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz qayalıqlarının adından götürülüb. Studiya Laçın başda olmaqla, ümumilikdə Qarabağ regionunun işğal və işğaldan sonrakı dövrlərinin salnaməsini yaratmaqda regional audiovizual mərkəz kimi fəaliyyət göstərəcək. Studiya çəkiliş məqsədilə regiona gələn yerli və xarici film istehsalçılarına bölgənin zəngin təbiəti, imkanları ilə bağlı bələdçilik və lokasiya xidmətləri göstərəcək, onları müvafiq avadanlıqla təmin edəcək. Studiya, həmçinin yerli və xarici media, dövlət təşkilatları, dövlət və özəl kinostudiyalar ilə əməkdaşlıq əsasında regiondan audiovizual kontent təqdim edəcək.

Diqqətə çatdırıldı ki, çoxşaxəli yaradıcılıq məkanı olan "Hoçazfilm"in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Bu istiqamətlərə Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin həyata keçirilməsi, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsulların təşviqi, kinoteatr və yaradıcı ittifaqla əməkdaşlıq, gənclər üçün yay məktəbləri, yaradıcılıq atelyeləri, kinematoqrafiya, rəsm kursları və müsabiqələrinin təşkili daxildir. Studiyanın tərkibində "Hochaz Hotel" və "Hochaz Kafe" də fəaliyyət göstərəcək.

Məlumat verildi ki, pavilyon texniki təchizat, o cümlədən səs, işıq izolyasiyası baxımından beynəlxalq standartlara uyğundur. Kino sənayesində ən çox tələbat duyulan dekorların hər biri xüsusi olaraq "Hoçazfilm"in sifarişi əsasında hazırlanmış əl işidir. Bütün bunlar kino və digər kommersial çəkilişlər üçün müxtəlif agentliklər və studiyalarla qarşılıqlı faydalı əməkdaşlığın yaradılması baxımından çox əhəmiyyətlidir. Pavilyonda ilkin mərhələdə nadir dekorasiyalar - təyyarə, helikopter, həbsxana, elmi laboratoriya və üçtərəfli yaşıl ekran quraşdırılıb. Kinopavilyonun tələbata uyğun olaraq mütəmadi qaydada yeni dekorlarla zənginləşdirilməsi nəzərdə tutulub.

Həmçinin bildirildi ki, "Hoçazfilm" yaradıcılıq studiyasının ilk layihəsi Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri, əslən laçınlı Xosrov bəy Sultanovun həyat və fəaliyyətindən bəhs edən "Qarabağ qubernatoru" bədii-sənədli filmidir. Layihənin məqsədi tarixi paralellər aparmaqla Qarabağ və Zəngəzur ətrafında erməni daşnaklarının və Qafqazda maraqları olan böyük siyasi güclərin həyata keçirdikləri işğalçılıq siyasəti, törətdikləri cinayətlər barədə həqiqətləri dünyaya çatdırmaq, 44 günlük Vətən müharibəsində Zəfər qazanmış Azərbaycan xalqının, dövlətçiliyinin əzəmətini, qüdrətini tərənnüm və təbliğ etməkdir.

**Birinci xanım Mehriban Əliyeva:** Kino müharibədən sonra Azərbaycan üçün çox vacibdir.

**Prezident İlham Əliyev:** Xüsusilə indi Qarabağ müharibəsi ilə bağlı, ümumiyyətlə, mövzular çox ola bilər. Müharibənin özü, həm müxtəlif epizodlar, müxtəlif əməliyyatlar.

**Birinci xanım Mehriban Əliyeva:** Əlbəttə.

**Studiyanın əməkdaşı:** Silsilə sənədli filmlərimiz var. Sizin uğurlu siyasətiniz sayəsində 44 günlük müharibə ilə böyük uğur əldə etmişik. Bundan artıq heç nə ola bilməz. İnşallah, yaxşı olacaq.

**Birinci xanım Mehriban Əliyeva:** Amin.

**Prezident İlham Əliyev:** İndi laçınlılar gəlib öz dədə-baba torpağında yaşayırlar. Uğurlar.

**Birinci xanım Mehriban Əliyeva:** Sağ olun.

**Studiyanın əməkdaşı:** Sağ olun.

# Orta məktəb binası istifadəyə verilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışında iştirak ediblər.**



Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Laçından olan sakinlərlə görüşüb qısa söhbət etdilər.

**Kişi sakin:** Anam 46 il burada müəllim işləyib. Biz anam tərəfdən böyük nəsil-kökük.

**Mehriban xanım Əliyeva:** Bura cənnətdir. Nə qəşəng qızdır.

**Balaca qız:** Gedək bizim evimizdə bir çay içək.

**Prezident İlham Əliyev:** Sağ ol, bala, çox sağ ol. Hələ çox gələcəyik. Sağ olun. Sizə cansağlığı və uğurlar.

**Qadın sakin:** Sağ olun.

**Mehriban xanım Əliyeva:** Sağ olun.

Elm və təhsil naziri Emin Əmrullayev məktəbdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edildi ki, Laçın şəhər 2 nömrəli tam orta məktəbin binasının layihələndirilməsi və əsaslı təmiri məqsədilə Azərbaycan Prezidenti 2022-ci il sentyabrın 22-də Sərəncam imzalayıb. Sərəncama əsasən, ötən ilin dekabrında məktəb binasında bərpa-gücləndirmə və əsaslı təmir işlərinə başlanılıb. Ümumilikdə 510 şagird yerlik məktəbin üçmərtəbəli binasının sahəsi 4550 kvadratmetrdir. Binada 24 yerlik doqquz, 18 yerlik beş və 12 yerlik dörd sinif otağı, 1 informatika, 1 texnologiya kabineti, 3 laboratoriya, 18 yerlik məktəbəhazırlıq otağı və 24 yerlik hərbi hazırlıq kabineti var.



Həmçinin məlumat verildi ki, Azərbaycan Prezidentinin qeyd olunan Sərəncamı ilə Laçın rayonunun 176 şagird yerlik Zabux kənd tam orta məktəbi binasının layihələndirilməsi, əsaslı təmiri və bərpasına başlanılıb. Həmin məktəb binasının ümumi sahəsi 1245 kvadratmetrdir. Binada 11 sinif otağı, kimya, fizika laboratoriya otaqları, informatika kabineti, yeməkxana, tibb otağı, akt və gimnastika zalları, hərbi hazırlıq kabineti, kitabxananın yaradılması nəzərdə tutulur.

# "Həkəri Balıq Təsərrüfatı" fəaliyyətə başlayıb



**Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunda "Həkəri Balıq Təsərrüfatı"nın açılışında iştirak ediblər.**



Dövlətimizin başçısına və birinci xanıma təsərrüfat barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ zonasında ilk nərəyetişdirmə təsərrüfatı olan bu müəssisədə il ərzində 35 ton Kür nərəsi, 1,5 ton çökə və 5 ton forel yetişdiriləcək. Bunun üçün müəssisədə hər birinin uzunluğu 40, eni 3 metr olan açıq tipli 36 beton kanal yaradılıb.

Dövlətimizin başçısına və birinci xanıma nərə balığının yetişdirilməsi və kürünün əldə edilməsi prosesi barədə də məlumat verildi.

Diqqətə çatdırıldı ki, ana balıq kürünün formalaşmasından sonra cinslər üzrə məhsul əldə edilməsi üçün mövsümə uyğun olaraq martdan mayadək nohurlarda, bütün ilboyu isə şirin suyu olan qapalı su təchizatı qurğusunda saxlanılır. Balıqların cinsi təyin edildikdən sonra isə damazlıq sürü müəyyənləşdirilir. Sonrakı mərhələdə balıqların genetik pasportlaşdırılması və çipləşdirilməsi həyata keçirilir. Daha sonra balıq məhsullarının hazırlanması və emalı üçün erkək balıqların ayrılması, dişi balıqlardan kürü istehsalına başlanması prosesi aparılır. Sonda isə körpə balıqların buraxılması, kürü və balıq məhsullarının əldə edilməsi prosesi həyata keçirilir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, gələcəkdə müəssisənin fəaliyyətinin genişləndirilməsi planlaşdırılır. Belə ki, nərə əti istehsalının ildə 70 tona, kürünün 3 tona, forel ətinin isə 10 tona çatdırılması nəzərdə tutulur.

**AZƏRTAC**

# Humanizmin Mehriban Əliyeva bənzərsizliyi

(əvvəli 1-ci səhifədə)

Bununla bağlı yazımıza isə Mehriban xanım Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti təyin olunduqdan sonra "Rossiya 24" telekanalına müsahibəsində səsləndirdiyi fikirlərlə başlamaq istərdik: "UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri kimi, bütün bu illər ərzində mən öz beynəlxalq fəaliyyətimi nizamlamalı olurdum. İlk növbədə, bu, mənim üçün dünya ictimaiyyətinə Azərbaycanın tarixini, mədəni irsini, bununla yanaşı, Azərbaycanın bugünkü siyasi və ictimai gerçəkliklərini çatdırmaq imkanı idi. Müasir Azərbaycanın nə demək olduğunu, onun əhəmiyyətini, siyasi mövqeyini, bu ölkənin potensialını dünya ictimaiyyətinə çatdırmaq lazım idi. Düşünürəm ki, bu istiqamətdə də xeyli iş görməyə nail olmuşam. Buna görə də mən gələcəyə nikbin baxıram".

Diqqətə çatdırdığımız iqtibas birinci xanımın Birinci vitse-prezident postuna layiqliyinin yalnız kiçik preambulasıdır. Bu preambulaya diqqət yetirərkən, onun keçdiyi yol, məqsəd və vəzifələri, reallaşdırdığı tədbir və təşəbbüslər, gördüyü işlər gözlər önündə canlanmaqdadır. İstər-istəməz sual yaranır: Hansı məqamı fərqləndirək? Belə nəticəyə gəlirik ki, fərqləndirilməli cəhət yoxdur. Çünki Mehriban Əliyeva obrazının bütün sahələrdə gördüyü işlərin hamısı əhəmiyyətlidir. Yalnız bir ölçü vahidi var ki, onun adı ürəkdir. Böyük Ürək.



O ürək Mehriban xanımın çoxşaxəli fəaliyyətinin məğzini Azərbaycana, azərbaycançılığa xidmət amalına kökləmək naminə döyünür. Bu amalın məğzində Heydər Əliyev Fonduna rəhbərliyin dayanmasının dərin məntiqi var. Axı, ulu öndər Heydər Əliyev Azərbaycan adlı ayrıca dünyadır. O, müasir, müstəqil respublikamızın qurucusu, azərbaycançılığın banisidir. Dahi şəxsiyyətin zəngin irsinin yaşadılması və təbliği isə Mehriban xanımın əlahiddə xidmətidir.

Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi həyata keçirdiyi misilsiz fəaliyyət xətti ümummilli liderin ruhuna dərin ehtiram nümunəsi olmaqla yanaşı, həm də öz xalqı üçün fədakarlıqlar etmiş, olmazın məhrumiyyətlərə qatlaşmış nəhəng dövlət adamına münasibətdəki qədirbilənlikdir. Bu qədirbilənliyin milli dəyər şəklinə gəlməsi, öz ifadəsini genişmiqyaslı tədbirlərdə tapması Heydər Əliyev irsindəki fundamentallığa yeni ahəng qazandırır, bu irsi institusionallaşdırır.

Bəli, əminliklə vurğulaya bilərik ki, Mehriban Əliyeva Heydər Əliyevin mənalı ömür yolunu məktəbləşdirib. Elə bir məktəb ki, onun başlıca qayəsində Vətən sevgisi dayanır. Bütün çətinliklərə sinə gərmək üçün özündə güc və təpər tapan, ruhdan düşməyən, uğursuzluqları uğura çevirmək əzmini təlqin edən sevgi. Ona görə Heydər Əliyev Fondu həm də Vətən sevgisinin ali mərkəzidir.

Heydər Əliyev Fondu Mehriban Əliyevanın özünün zənginliyindəki Vətən sevgisindən də nəşət alan platformadır. Qurumun gördüyü işlər el-obaya bağlılıq keyfiyyətlərindən doğan gücün, rasional düşüncənin, iti zəkanın sevgi naminə təzahürüdür. Bu təzahür dövlətçilik təfəkküründəki təntənədir – Mehriban Əliyeva təntənəsi. Bu təntənədə milyonlarla azərbaycanlıya Vətəni, xalqı, dövləti Heydər Əliyev kimi sevmək aşılanır. Aşılanır ki, dövlətçiliyimiz və müstəqilliyimiz əbədi olsun. Aşılanır ki, müstəqil respublikamızın ideoloji xətti daimilik qazansın, xalqımız ümummilli liderin ideyalarına söykənərək, yeni uğur və nailiyyətlərə doğru inamla addımlasın.

Bu yerdə Mehriban xanım Əliyevanın "Həyat dərsi" məqaləsindəki düşüncələrə üz tutmağı zəruri sayırıq. Çünki Heydər Əliyev zənginliyinə dəyər baxımından məxsusi ifadə tərzinə malik bu düşüncənin özü də dərin qədirbilənlikdir: "O zamanın qanunlarına görə yaşayan bir cəmiyyətdə respublika başçısının, sözün yaxşı mənasında, millətpərəst bir insan olması onun həyatının nə qədər maneələrlə, üstüörtülü təhlükələrlə, daxili sarsıntılarla dolu olduğunu göstərir. Başqa cür ola da bilməzdi! Axı Azərbaycan üçün Heydər Əliyev möhkəm sipər, dayaqdır. Bunu bizim nəslimiz 80-ci illərin sonunda Vətənin üstünü qara buludlar alanda – Qarabağ savaşında, 20 Yanvar faciəsində haqsızlıq və laqeydlik ilə üz-üzə qalanda hiss etdi. Onun varlığının Azərbaycan üçün Tanrı payı olduğunu onda dərindən duyduq. Hiss etdik ki, "Azərbaycan və Heydər Əliyev bir-birinə bağlanmış qırılmaz tellərdir" kəlmələrinin ifadəsi adi ritorika deyil.

***

Daxilən zəngin dünyaya malik insanın xarakterinə hakim kəsilmiş duyğuların məcmusu həm də mədəniyyətdir. Yüksək mədəniyyətə sahib fərdlərin malik olduqları keyfiyyətlər bir yerə toplanaraq xalqın şüur və düşüncəsinin məhsulu kimi qəlibləşir. Nəticə etibarilə düşüncə kübarlığının özü mədəniyyət hadisəsinə çevrilir. Azərbaycan xalqının varlığı da böyük ölçüdə onun ayrı-ayrı görkəmli şəxsiyyətlərinin daşıdıqları mədəniyyət formalarının ümumiləşmiş məhsuludur. Qətiyyətlə söyləyə bilərik ki, Mehriban xanım Əliyevanın mədəniyyətimizə verdiyi dəyər də, onun təbliğinə sərf etdiyi misilsiz əmək də məhz bundan qaynaqlanır. Elə bu səbəbdəndir ki, onun ictimai fəaliyyətinin ilk addımlarından biri Azərbaycan Mədəniyyət Fondunun təsis edilməsi olmuşdur.

Mədəni zənginlik elə bir xüsusiyyətdir ki, paylaşdıqca artır, daha geniş miqyas alır. Miqyas genişlənir, xalq öz mədəniyyətinə xas cəhətləri daha geniş areallara yayaraq, həm özü zənginləşir, həm də daşıdığı mental dəyərlərə, bir növ, beynəlmiləlçilik qazandırır. Beləliklə, xalq dünyada tanınır, qəbul olunur, özü ilə hesablaşılması üçün immunitet formalaşdırır. Görünür, buna görədir ki, dahi Hüseyn Cavid demişdir:

*Turana qılıncdan daha kəskin, ulu qüvvət*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!*

Bəli, Mehriban xanım Əliyeva Azərbaycan mədəniyyətinin böyük hamisidir. O, mədəniyyətimizi haqq səsimizin eşidilməsi naminə güc və qüvvət mərtəbəsinə ucaldan ziyalı obrazıdır. Haqq səsimizdən söz düşmüşkən, dövlətimiz otuz ilə yaxın müddətdə Qarabağ və digər işğal olunmuş ərazilərimizin qurtulması naminə mücadilə verdi. Ulu öndər Heydər Əliyevin mövcud istiqamətdəki mübarizəsinə yeni ruh gətirən Prezident İlham Əliyev siyasi-diplomatik vasitələrlə savaş meydanına atıldısa, Mehriban xanım Əliyeva savaşın, belə demək mümkünsə, mədəniyyət cəbhəsinə rəhbərlik etdi. Beləliklə, 44 günlük Vətən müharibəsi nəticəsində diplomatik bacarıq və səriştə ilə mədəniyyətin vəhdəti özünün qürur doğuran bəhrəsini gördü – şanlı Zəfər tariximiz yazıldı. Deməli, Mehriban xanım mədəniyyət davasında da Zəfər çaldı.

Azərbaycanın Birinci vitse-prezidentinin mədəniyyət sahəsindəki layihələri də digər fəaliyyət istiqamətləri kimi, kifayət qədər, çoxşaxəli diapazona malikdir. Ancaq bu yerdə Konfutsinin kəlamını xatırlayaraq fikrimizə aydınlıq gətirmək istərdik. Dahi Çin filosofu deyirdi ki, bir millətin xarakterini bilmək istəyirsinizsə, o millətin musiqisini dinləyin. Mehriban xanımın milli musiqimizlə, muğamımızla bağlı reallaşdırdığı təşəbbüslər xalqımızın xarakterinin təbliğidir. O insan ki, içində musiqi duyğusu yoxdur və qəlbi səslərlə riqqətə gəlmir, onun hissləri gecə kimi qaranlıqdır, – deyirdi Uilyam Şekspir. Belə nəticəyə gəlirik ki, Mehriban Əliyevanın musiqi təbliğatı, eyni zamanda, Azərbaycan insanının işıqlı obrazının tərənnümünə yönələn fəaliyyətdir. Bu fəaliyyət önündə aydın səhərlərin açılmasında isə İlahi qanunauyğunluq və ədalət var.

***

İdmana münasibətdə "sağlam bədəndə güclü ruh olar" deyirlər. Mehriban Əliyevanın idmanın təbliği istiqamətində gördüyü işlərdə sağlam bədənin daşıdığı sağlam ruhu həm də mədəniyyətimizin dünyaya tanıdılması naminə hərəkətə gətirməkdir. Onun mövcud sahədəki təşəbbüskarlığı və təşkilatçılığı özlüyündə dərin yüklü dövlət hadisəsidir. Bu baxımdan, 2015-ci ildə Bakıda keçirilmiş Birinci Avropa Oyunlarını xatırlamaq yerinə düşər. Həmin mötəbər turnirin keçirilməsi üzrə Təşkilat Komitəsinin sədri olan Mehriban xanım tarixi idman olayını əsl Azərbaycan şöləninə çevirdi. O şöləndə şanlı tariximiz də vardı, müasir simamız da, gələcəyə doğru inamlı addımlamaq əzmimiz də.

Mehriban xanım hələ turnirdən əvvəl Kann, Afina, Berlin, İstanbul və digər şəhərlərdə "Bakı-2015" ilk Avropa Oyunlarının təqdimat mərasimlərindəki çıxışları ilə Vətənimizin böyük idman hadisəsinə layiqli evsahibliyini gerçəkləşdirəcəyinə dərin əminlik hissi formalaşdırdı. Bu baxımdan, onun 2014-cü il noyabrın 18-də İstanbulda "Çırağan" hotelində keçirilmiş təntənəli mərasimdəki çıxışından bir hissəni diqqətə çatdırmağı vacib sayırıq: "Birinci Avropa Oyunları Avropanın idman tarixində yeni bir səhifə açacaq. Əlbəttə, ilk oyunlar gələcək oyunların səviyyəsini, standartlarını müəyyən edəcək. Ona baxmayaraq ki, hazırlığa cəmi iki il yarım vaxt ayrılıb, Azərbaycan bu oyunları yay olimpiya oyunları səviyyəsində keçirtmək əzmindədir. Bunun üçün bütün lazımi tədbirlər həyata keçirilir və zəruri addımlar atılır. Biz güclü Təşkilat Komitəsi yaratmışıq. Beynəlxalq qurumlarla, Avropa Olimpiya Komitəsi ilə beynəlxalq idman federasiyaları ilə çox uğurlu əməkdaşlıq qurmuşuq, çoxsaylı könüllülərin köməyindən istifadə edirik. Və ümidvaram ki, birinci Avropa oyunları ədalətli, sağlam rəqabət, dostluq və həmrəylik şəraitində keçiriləcək".

Azərbaycanın birinci xanımının mədəniyyət dolu idman təşəbbüskarlığı özünü ən müxtəlif tədbirlərdə göstərib və göstərməkdədir. Ancaq hesab edirik ki, onun rəhbərlik nümunəsi Birinci Avropa Oyunları timsalında Azərbaycana rəğbət və qibtə epopeyasını yazdı. Turnir Mehriban xanımın da dediyi kimi, Yay Olimpiya Oyunları səviyyəsində təşkil olundu. Bu səviyyənin qazandırdığı təcrübə bazası onu deməyə əsas verir ki, ölkəmiz bütün dördilliklərin ən böyük idman hadisəsinə evsahibliyinə də tam layiqdir.

Bəli, Mehriban xanımın fədakar əməyi sayəsində Prezident İlham Əliyevin Azərbaycanda idmanın kütləviləşməsi istiqamətində apardığı dövlət siyasəti yeni ahəngdarlıq zirvəsinə çatıb. Ölkəmiz dünya gimnastika ailəsinin fəxridir. Ümumən, Mehriban Əliyevanın istər Azərbaycan Gimnasitika Federasiyasının prezidenti, istərsə də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü kimi daşıdığı missiyalar, onun digər fəaliyyət sahələrindəki gördüyü işlər kimi bənzərsiz və təkrarsızdır.

***

Mehriban Əliyeva Azərbaycan ictimai-siyasi həyatında son dərəcə parlaq simadır. Yuxarıda sadaladıqlarımız məziyyətlərin hər birinin həmin simanın formalaşmasında və cəmiyyət tərəfindən qəbulunda öz rolu var. Nəzərə alaq ki, istər idman, istər mədəniyyət, istərsə də digər istiqamətlər üzrə əhatəli fəaliyyətin hədəfində Azərbaycan amili varsa, həmin yöndə siyasətin rolu da ön planda olmalıdır. Bu, qaçılmaz reallıqdır.

Ancaq siyasətçi Mehriban Əliyevanı fərqləndirən başlıca xüsusiyyət onun bu platformadakı iştirakında ziyalılıq çalarlarının özünü daha qabarıq göstərməsidir. Demək çətindir ki, onun siyasətçi ampluası ziyalı təbiətinin vurğulanmasına xidmətdir, yoxsa ziyalılığının siyasətçi simasına təsiri var. Görünür, incə balans mövcuddur və hesab edirik ki, qadın siyasət adamının zərif gücünü vurğulayan da məhz bu balansın gözlənilməsidir.

Hər bir halda, siyasətçi Mehriban Əliyeva üçün hədəflər var. Həmin hədəflərdən söz açılarkən, onun Birinci vitse-prezident təyin olunduqdan sonra xarici media vasitələrindən birinə müsahibəsində səsləndirdiyi fikrin üzərində dayanmağı əhəmiyyətli sayırıq. Hesab edirik ki, bu fikir Mehriban xanımın ali dövlət vəzifəsinə təyin olunmazdan əvvəlki fəaliyyət paradiqmasının yeni postdan irəli gələn məsuliyyətin qarşılanmasına dəstək baxımından önəmini təsdiqləyir: "Düşünürəm, dediyim kimi, bundan əvvəl icra etdiyim fəaliyyətin tutumu, yəqin ki, daha geniş olacaq. Yəqin ki, iş birmənalı daha çox olacaq. Mənim təsəvvürüm, istəyim sosial problemlərin, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə diqqəti maksimum cəmləşdirməkdir. Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkün var. Bütün bu illər ərzində onların problemləri dövlət və hökumət səviyyəsində həll olunur. Lakin mən hesab edirəm ki, biz bu sahəyə daha böyük diqqət yetirməliyik. Mən də bu işə hazıram".

Mehriban xanımın Birinci vitse-prezident kimi ölkəmizin siyasət olimpindəki missiyası göstərir ki, vəzifəyə şöhrət və sanbal gətirən insandır. İnsanın daxilindən gələn nəcib xüsusiyyət və davranışlar, kübarlıq və alicənablıqdır. Əslində, onun Milli Məclisin deputatı kimi siyasət meydanında gördüyü işlər də həmin keyfiyyətlər məcmusunun ifadəsi idi. Birinci vitse-prezidentlik institutu isə onların arealını daha geniş götürmək imkanı verdi. Müvafiq olaraq vəzifənin özü də dəyər qazandı.

Vəzifə həm də ona görə dəyər qazandı ki, Mehriban xanımın siyasi baxışlar sistemini bilavasitə insan, ona qayğı, həssas münasibət amili təşkil edir. Axı insanı anlamaq, duymaq, onun daxili aləminə bələdçilik həm də dövlət idarəçiliyinin qayəsində dayanır. Mehriban xanımın təsvirindəki kimi: "Hakimiyyətə qarşı müxalifətdə olmaq olar, lakin öz ölkəsinə qarşı müxalifətdə olmaq lazım deyil. Bu, ən dəhşətli haldır. Mənim məqsədim ondan ibarətdir ki, belə deyək, hətta tənqidə ən çox meyil edən təbəqələrin də müəyyən müddətdən sonra tənqid üçün az əsası olsun". Bütün bunlar bir daha Azərbaycan Prezidenti İlham Əliyevin seçiminin uğurunu göstərir.

***

Mehriban Əliyeva obrazını bənzərsiz və təkrarsız edən bir mühüm məqama da diqqət yetirək. Məlum olduğu kimi, Azərbaycanda qadınlar ictimai həyatda iştirakları ilə seçiliblər. Tariximizdə də bunun layiqli örnəkləri var. Ancaq tam əminliklə söyləmək mümkündür ki, tarixin heç bir dövründə Azərbaycan qadını indiki qədər ictimailəşmiş məzmunda olmayıb. Onu da tam qətiyyətlə demək lazımdır ki, Azərbaycan qadınının cəmiyyət həyatındakı hazırkı fəallıq etalonu məhz Mehriban xanımdır. O, vətənpərvər, maarifpərvər qadınlarımızın müasir həyatını yeni keyfiyyətdə davam etdirən nümunədir.

Mehriban Əliyeva obrazı qadınların cəmiyyət üçün sosial məsuliyyət hissinin təşviqatçısıdır. Onun iş diapazonundakı genişlik zərif cinsin nümayəndələrinin kişilərlə bərabər, çiyin-çiyinə, xalqımız və dövlətimiz naminə yorulmadan çalışması yolundakı mayakdır. Bu mayak bütün sahələr üzrə qadın əməyinin təşviqedici funksiyasını yerinə yetirir, istiqamətləndirici rol oynayır. Elə bu səbəbdəndir ki, ölkəmizdə qadınların təmsil olunduqları strukturların sayı durmadan artır.

Ən əsası isə Mehriban Əliyevanın fəaliyyəti ənənəvi Şərq qadınının tarixdə məlum olan yüksək fəallıq nümunələri ilə tam passivlik tendensiyası arasındakı təzadı aradan qaldırır. Nəzərə alaq ki, tarix boyu haqqında söz açdığımız yüksək fəallıq qadının zəriflik obrazına xələl gətirdiyi kimi, tam passivlik də onu cəmiyyətdən təcrid durumuna salırdı. İndi qətiyyətlə deyə bilərik ki, Mehriban xanımın müəyyənləşdirdiyi meyar qadının əsl qadın və ana obrazını vurğulamaqla, keçmişin qadınlara münasibətdəki mənfi stereotiplərini sıradan çıxarır, həmin neqativlərin təkrarlanmaması üçün güclü mənəvi müqavimət səddi formalaşdırır. Bu, son dərəcə dəyərli və milli olduğu qədər də bəşəri məqamdır. Həmin məqamın incəliklərinə ölkəmizin Birinci vitse-prezidenti "Rossiya 1" telekanalına verdiyi və telekanalın "Vesti nedeli" proqramında yayımlanmış müsahibədə özünəxas üslubda aydınlıq gətirir. Mehriban Əliyeva Birinci vitse-prezidentin qadınların siyasətçi kimi qəbuluna o qədər də adət etməmiş Şərq mentallığına malik kişilərlə qarşılaşmasının labüdlüyünə, buna nə dərəcədə hazır olduğuna dair suala cavabında bildirir: "Əlbəttə, biz müsəlman ölkəsiyik, lakin, eyni zamanda, dünyəvi dövlətik, bizim dünyəvi əsaslarımız var. Biz öz dinimizə, ənənələrimizə dərin hörmət və ehtiram bəsləyirik. Lakin bizdə dövlət və din bir-birindən ayrıdır və düşünürəm ki, bu məsələdə heç bir problem yoxdur. Mən buna tamamilə hazıram, bunu hər hansı çağırış hesab etmirəm".



***

Mehriban Əliyeva gözəl anadır, fədakar həyat yoldaşıdır. Nəzərə alaq ki, siyasətlə, nəhəng ictimai-humanitar fəaliyyətlə ailə məsuliyyətinin sintezini yaratmaq hər qadına müyəssər olan xoşbəxtlik deyil. Mehriban xanım xoşbəxtdir, bu anlamda da etalondur və onun ailə-idarəçilik vəhdəti baxımından nümunə kimi qiymətləndirilə biləcək bir çox keyfiyyətlərindən söz açmaq mümkündür. Həmin keyfiyyətlərin ümumi xarakteristikası onu deməyə əsas verir ki, Mehriban Əliyeva nümunəviliyi dövlət idarəçiliyi və ictimai fəaliyyətlə ailə mühiti arasında son dərəcə incə sərhədləri qorumaq bacarığındadır. Onun özü isə bildirir ki, hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın görünür ki, xanım Əliyeva fərdi vətəndaşdan ictimai xadimə, şəxsiyyətə çevrilmənin düsturlarına dərindən bələddir. Hansı məqamda özünü və ya öz ailəsini yox, ölkəsini təmsil edərək onun tərəqqisini düşünmənin xüsusiyyətlərinə də həmçinin.

Ancaq ayrı-ayrı müsahibələrindən, söylədikləri fikirlərdən o da aydın görünür ki, Mehriban xanımı milyonların nəzərində ucaldan iki vacib xüsusiyyət var. Bunlardan biri sadəlik, digəri səmimilikdir. Ailə mühiti səmimidir. Mehriban xanım o mühiti müsahibələrinin birində son dərəcə sadə tərzdə anladıb: "Mən xörək bişirməyi çox sevirəm. Əgər siz mənim necə dincəldiyimi soruşursunuzsa, bu, mənim gözəl istirahət edə biləcəyim sahədir. Ləziz xörəklər bişirmək bir növ həm də yaradıcı işdir. Mən bunu sevirəm, edirəm və bacarıram. Ola bilər, bu, bir qədər təvazökar səslənmir, amma ümid edirəm ki, hazırladığım yeməkləri dadanlar mənim sözlərimi təsdiqləyərlər. Mən, demək olar ki, bütün milli Azərbaycan xörəklərini bişirə bilirəm, Avropa yeməklərini bişirməyi xoşlayıram. Bu, tamamilə normaldır. Əvvəla, hesab edirəm ki, bunu hər bir qadın bacarmalıdır. Amma əgər bunu sevirsənsə, niyə də yox".

"Xalq qəzeti"nin kollektivi olaraq, Vətəni, xalqı və dövləti naminə reallaşdırdığı bütün işləri sevərək həyata keçirməyin sivil örnəyi olan Azərbaycanın Birinci vitse-prezidenti, birinci xanımı Mehriban Əliyevanı doğum günü münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, müstəqil Azərbaycan naminə yorulmaz fəaliyyətində bol-bol uğurlar və sevinclər arzulayırıq.

***Əflatun AMAŞOV,***
***baş redaktor***

# Şarl Mişelin susqunluğu pozması

## Vasitəçilikdə israr və Ermənistana xəbərdarlıq

(əvvəli 1-ci səhifədə)

Ancaq düşünək ki, Aİ Şurası Prezidenti səhvə yol verməz. Ən azından ona görə ki, özünün vasitəçiliyi ilə keçirilmiş görüşlərin, bütövlükdə təşəbbüskarı olduğu platformanın, hələlik Azərbaycan–Ermənistan nizamlaması baxımından ən uğurlu sayıldığını yaddan çıxarmaz. Bu şəxsin qısa müddətdə erməni lobbi və diaspor təşkilatlarının təsirinə düşüb mövqeyini dəyişəcəyinə dair ehtimal da azdır. Çünki Avropanın, eləcə də Aİ-nin, belə demək mümkünsə, klassik ermənipərətləri var. Sahə kifayət qədər ciddi monopoliyadadır.

Digər tərəfdən, erməniпərəstlik baxımından Ş.Mişelə ehtiyacın duyulmadığı fikrindəyik. Ən əsası isə cənab Mişelin sadəcə ağıllı adam olduğunu qənaətimiz var. Axı, ağıllı adam Azərbaycan Prezidenti İlham Əliyev kimi liderin ona inam və etimadını, vasitəçilik missiyasına verdiyi dəyərini hansısa avantüraya dəyişməz. O zaman düşünək, görək, Aİ Şurasının Prezidenti səssizliyi nə üçün pozub?

***

Əlbəttə, Ş.Mişel barədə eyhamlı söz açmağımız heç də təsadüfi deyil. Əvvəla, yuxarıda qeyd etdiyimiz fikirlər var və həmin fikirlərin deyiliş tərzini şübhələndirdik. İkincisi, "Azadlıq" radiosundakı mənbə iddia edir ki, Aİ Şurasının prezidenti Azərbaycanı Beynəlxalq Cinayət Məhkəməsinin qərarına sayğı göstərməyə, Laçın yolunu açmağa çağırıb.

Hər halda, Azərbaycan – Ermənistan şərti sərhəddinin, yəni Həkəri çayı üzərindəki nəzarət-buraxılış məntəqəsinin açıqlığı, oradan hər gün dinc ermənilərin keçdiyi cənab Mişelə agah olmamış deyil. Çox güman ki, o, hər gün sərhəddən keçənlərin mövcudluğunu bildiyi halda, məntəqənin bağlı qaldığı barədə bar-bar bağıran sarsaq siyasi qövmün varlığından da xəbərdardır. O zaman nəyə görə erməniləri müdafiə edənlərin cərgəsinə qoşulsun ki? Nə üçün avantüristlərin axmaq ritorikasını təkrarlasın?

Bütün bunları əsas götürərək və Aİ Şurası prezidentinin ağıllı adam olduğunu düşünərək, onun həmçinin Azərbaycan tərəfinin digər marşrutlar, o cümlədən Ağdam vasitəsilə humanitar yardım göstərməyə hazır olduğunu vurğulamasının üzərində dayanaq. Üzərində dayanmaq istədiyimiz növbəti məqam Mişelin "Brüsselin Bakı ilə İrəvan arasında danışıqlardakı tərəfsiz və dürüst vasitəçi olmaqda davam etdiyini" bildirməsidir.

***

Birinci məqam. Aİ Şurasının prezidenti Ağdam vasitəsilə Qarabağ ermənilərinə humanitar yardım məsələsini Azərbaycan və Ermənistan liderlərinin danışıqlar gündəliyinə gətirən şəxsdir. Yada salaq ki, o, Prezident İlham Əliyevlə baş nazir Nikol Paşinyan arasında iyulun 15-də Brüsseldə keçirilmiş görüşdən sonra mətbuata bəyanatında bu barədə söz açmışdı. Həmin vaxt erməni ictimai rəyi Mişelin bildirdiklərini, bir növ, süngü ilə qarşılamışdı. Elə indi də Ermənistan rəhbərliyi, habelə Qarabağdakı separatçı rejim Ağdam–Xankəndi yolunun açılmasına maneçilik törədir. Onların isterikasına rəng qatan xaricdəki erməniпərəstlər isə bildirirlər ki, bu yol Laçın yoluna alternativ kimi qiymətləndirilə bilməz. Ancaq Mişelin hazırkı açıqlaması onu göstərir ki, Azərbaycan tərəfinin irəli sürdüyü məsələ Aİ-nin gündəmindədir.

İkinci məqam. Əlbəttə, Ş.Mişel, həmçinin digər vasitəçilər Ermənistanın avqustun 16-da BMT-nin Təhlükəsizlik Şurasının iclasına daşıdığı Qarabağda humanitar böhran şousuna reaksiya verməmişdilər. Bildirməmişdilər ki, bu şou onların gündəliyinə ziddir. Deməmişdilər ki, İrəvan belə hərəkətlərlə danışıqlar prosesinə əks mövqe ortaya qoyur, yeni reallıqlar formalaşdırmağa cəhd göstərir.



Ancaq bunları vurğulayacaq ən birinci şəxs məhz Ş.Mişeldir. Çünki onun missiyası sülhə aparan ən uğurlu təşəbbüsdür. Axı, Ermənistanın konstruktivliyə meyilliliyi Aİ platformasında nəzərə çarpıb. Baş nazir N.Paşinyanın Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını dilə gətirməsi, həmin platforma çərçivəsindəki səylərin nəticəsi kimi qiymətləndirilib. Birdən-birə BMT tribunasına çıxarılan məsələ isə Ş.Mişelin əməyinə aşkar hörmətsizlikdən başqa bir şey deyildi. Cənab Mişel susmaqla o hörmətsizliyi cavabsız qoydu. Eləcə də digər vasitəçilərin susqunluğunu mövcud kontekstdən dəyərləndirmək üçün əsaslar var. Çünki susmaq həm də razılıq əlamətidir...

Onu da vurğulayaq ki, həm Ş.Mişel, həm də ABŞ və Rusiya sakit qalaraq erməni avantürizminin növbəti "seansının" baş tutmasına razılıq vermiş oldular. Əslində, buna tam mənada razılıq demək doğru sayılmaz. Onlar, sadəcə, Ermənistana şans yaratdılar ki, sonuncu gülləsini atsın. Əgər bu güllə hədəfə dəysəydi, yəni, BMT Təhlükəsizlik Şurası qətnamə çıxarsaydı, o zaman, şübhəsiz ki, ona istinad edəcəkdilər. Necə ki, indi Ş.Mişel Beynəlxalq Cinayət Məhkəməsinin qərarına istinaddan, daha doğrusu, qərara əməl olunmasından danışır.

***

Haşiyə çıxaq ki, BCM-in qərarı mübahisəyə açıqdır. Çünki konkret deyil və Azərbaycanla Ermənistan arasında konkret sərhəd xətti olacaqsa (olmalıdır – red.), o zaman həmin qərarın əhəmiyyəti tamamilə itir. Digər yandan isə BCM, faktiki olaraq, sözügedən qərarına zidd addım atıb. Qurum Ermənistanın Azərbaycanın Laçın–Xankəndi yolunda qurduğu postun ləğvi məqsədilə qaldırdığı iddianı rədd edib. Hazırda sərhəd məntəqəsinin fəaliyyəti Azərbaycan qanunvericiliyinə uyğun tənzimlənir və erməni sakinlər müvafiq qaydada ondan istifadə imkanındadırlar. Yəni, tərəfsiz vasitəçi olduğunu bildirən Ş.Mişelin buna diqqət yetirməsi, durumu nəzərə alması mütləqdir. Ən azı ona görə ki, erməni avantüristlər bunu əllərində bayrağa çevirirlər və sonra Aİ Şurasının prezidenti özünün də bildirdiyi kimi, dürüst olmaq istəsə, həmin başıpozuqlar məsələyə riyakarlıq adı qoyacaqlar. Fikrimizcə, cənab Mişel heç nədən, yumşaq desək, tənqid hədəfinə çevrilmək istəməz...

***

Bəli, rəsmi İrəvanın BMT müstəvisində çıxardığı oyun nəticə vermədi və hazırda Ş.Mişelin açıqlaması Azərbaycan–Ermənistan danışıqlar prosesinin qaldığı yerdən davamına çağırışdır. Bakı, şübhəsiz, çağırışa müsbət yanaşır. BMT-dəki erməni şousunu susqunluqla qarşılamaq Aİ-nin vasitəçilik missiyasının səmimiliyinə inamı azaltsa da, ölkəmiz həm belə prinsipsiz yanaşmaları çox görüb öyrəncəli olduğundan, həm də ümumən Cənubi Qafqazda ədalətli sülhün formalaşmasına can atdığından, dövlətimizin Mişelin təşəbbüsünü nəzərə alacağını söyləyə bilərik. Bəs Ermənistan?

Rəsmi İrəvanın təmsilçiləri, demək olar, hər gün anti-Azərbaycan çağırışlar səsləndirməklə, ölkəmizin nüfuzuna xələl gətirməyə hesablanmış "gedişlərə" baş vurmaqla, Aİ-nin, yenidən start götürməsinə ümidlərin yarandığı, sülh missiyasına tam etinasız münasibət bəslədiklərini göstərirlər. Yəni, Ermənistandakı hazırkı ovqat Azərbaycanla danışıqlar perspektivini doğurmur. Əksinə, belə təəssürat yaranır ki, İrəvanın BMT-də atdığı sonuncu güllənin boşa çıxması, erməni ictimai rəyini qəzəbləndirib və vəziyyətdən yeganə çıxış yolu üçüncü müharibədir...

***

Nəhayət, Ş.Mişelin əvvəldə diqqətə çatdırdığımız fikrindən söz açaq. Söhbət Bakı–Xankəndi dialoqu kimi sırınan və Aİ Şurası prezidentinin dilindən səsləndiyi iddia edilən məsələdən gedir. Bununla bağlı fikirlərimizi yuxarıda diqqətə çatdırdıq. Əlavə olaraq, eyni zamanda, cənab Mişelin dialoq dedikdə Qarabağın erməni icmasının nümayəndələri ilə Azərbaycanın təmsilşilərinin görüşünü nəzərdə tutduğuna inanaraq bildirək ki, Ermənistan və Qarabağdakı separatçı rejim ölkəmizin xoşməramlı təkliflərini geri çevirmək üzrə "püxtələşib". Bu iki kəsim BMT TŞ-dəki müzakirədən əvvəl toplantının xeyirlərinə yekunlaşacağı fikrinə qapılıb, Yevlaxda planlaşdırılmış təması pozdular. İndi isə bəyan edirlər ki, Bərdə görüşünə razı deyillər.

Belə olan təqdirdə cənab Mişel də, deyəsən. "güllələrini" havaya atana birinə çevrilir. Halbuki, Ermənistanın Aİ Şurasının Prezidentinin çağırışına həssas yanaşması lazımdır. Çünki Mişel dialoqdan söz açarkən, prosesin mümkün qədər tez reallaşmasının zəruriliyini bildirib. Hesab edirik ki, sırf "mümkün qədər tez" ifadəsi yalnız çağırış deyil, eyni zamanda, İrəvan, ümumilikdə, erməni avantürizmi üçün xəbərdarlıqdır. Axı, Azərbaycanın səbrinin tükənməyə doğru getdiyi beynəlxalq ictimaiyyətə çox yaxşı məlumdur.

***

Sonda bildirək ki, hər bir halda Aİ Şurasının prezidenti Ş.Mişelin susqunluğu pozması müsbət haldır. Bu, onu göstərir ki, qurum özünün vasitəçilik missiyasında israrlıdır. Digər tərəfdən, Ş.Mişelin açıqlaması təşkilatın mümkün vasitəçilik rəqabətini əlindən buraxmadığının da təsdiqidir.

Onu da nəzərə alaq ki, Aİ-nin vasitəçilik baxımından bəlli gündəliyi var. Həmin gündəliyə əsasən, Azərbaycan və Ermənistan liderləri sentyabrda görüşməlidirlər. Onu da nəzərə alaq ki, sentyabr görüşünün baş tutması Aİ-nin iki Cənubi Qafqaz ölkəsi arasındakı münasibətlərin normallaşmasına yönələn səylərinin məntiqi və ədalətli yekununa doğru irəliləməsi baxımından son dərəcə önəmlidir.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Xankəndi ilə dialoqu "torpedolayan" kimdir?

## *İrəvan üçtərəfli bəyanatın bəndlərini öz arşını ilə ölçür*

(əvvəli 1-ci səhifədə)

### "Yeddi"dən əvvəl "dörd" gəlir

Paşinyanınm son vaxtlar tez-tez müraciət etdiyi 10 noyabr Bəyanatının 7-ci bəndinə nəzər yetirək. Orada yazılıb: "Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ofisinin nəzarəti altında geri qayıdır". Bəs məcburi köçkünlərin və qaçqınların Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara qayıtması üçün hansı şərtlər yaradılmalıdır? Onların əvvəlki yaşayış yerlərinə dönmələrindən ötrü zəruri şərait kim tərəfindən təşkil edilməlidir? Baş nazir bundan bəhs etməyi, nədənsə, unudur. Axı buna qədər həmin bəyanatın 4-cü bəndi yerinə yetirilməlidir. Əgər Paşinyan, doğrudan da, bu bənddə yazılanları unudubsa, onda yadına salaq: "Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir". Yəni, iki il doqquz ay bundan əvvəl Rusiya sülhməramlı hərbi kontingenti Qarabağa ayaq basdığı zaman Ermənistan silahlı qüvvələrinin tör-töküntüsü Azərbaycan torpağını tərk etməli idi. Bu məsələnin indiyədək reallaşmamasında İrəvan qədər Moskvanın da məsuliyyət daşıdığını qeyd etməliyik.

Nikol Paşinyanın hökumətin iclasındakı məsuliyyətsiz bəyanatına **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, politoloq Fərid Şəfiyevin**



şərhi də maraqlı oldu: "Adı çəkilən üçtərəfli bəyanat restoran menyusu deyil ki, orada ürəyin istədiyini seçib götürəsən. Sənəddə göstərilən bütün maddələr icra olunmalıdır. Biz görürük ki, misal üçün, Zəngəzur dəhlizi ilə bağlı doqquzuncu bənd yerinə yetirilməyib. Bundan savayı, Ermənistanın qeyri-qanuni silahlı birləşmələrinin Azərbaycan ərazisindən dərhal çıxarılması nəzərdə tutulan dördüncü bənd hələ də qulaqardına vurulur. Xankəndi – Bakı dialoquna gəldikdə isə onu əngəlləyən Ermənistanın özü və onun Fransa kimi havadarlarıdır".

İrəvanın faktiki olaraq yalnız Bakının təzyiqi altında müəyyən addımları atmağa məcbur olduğuna diqqəti yönəldən politoloq bu mənada Azırbaycanın ərazi bütövlüyünün tanınmasını misal çəkdi: "Hazırda İrəvan üçüncü ölkələrin, kənar qüvvələrin, beynəlxalq təşkilatların vasitəsilə Qarabağ erməniləri məsələsini gündəmdə saxlamağa çalışır. Aydın məsələdir ki, onlar sülh danışıqlarının bundan sonrakı raundlarında da deyəcəklər ki, bəli, biz Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq, amma oradakı Qarabağ erməniləri ayrılmaq istəyirlər, çünki soyqırımına məruz qala bilərlər. Belə bir kampaniya artıq başlayıb. Laçın yolu üzərində sərhəd postunu yaratmağımız danışıqların dinamikasını tamamilə dəyişdirdi. Bəli, ermənilər düşünürdülər ki, Laçın yolu daim açıq qalacaq və rahat şəkildə Qarabağa silah-sursat, mina, qaçaqmal daşıyacaqlar. Bakı Laçın postunu yaratmaqla bu təxribatın qarşısını aldı. İndi onlar yenidən bu yolu ələ keçirmək üçün Azərbaycana hər cür təzyiq göstərirlər. Düzdür, İrəvan tərəfdarları ilə BMT Təhlükəsizlik Şurasında özünə sərfəli sənəd qəbul etdirməkdən ötrü üç dəfə cəhd edib və yenidən buna gedirlər. Hesab edirəm ki, əgər Təhlükəsizlik Şurası onların istəyinə uyğun hər-hansı sənədə səs verərsə, bu halda Azərbaycan, ümumiyyətlə, sülh danışıqlarında iştirakını dayandıra bilər".

### Bakının sözü qəti, mövqeyi dəyişməzdir

Beləliklə, həm İrəvandakı, həm də Xankəndidəki separatçılar kənar dəstəkçilərinin fitvası ilə Bakıya "meydan oxumağa" başlayıblar. Onları buna kimlərin və hansı məqsədlə təhrik etdiklərini Bakıda yaxşı bilirlər. Sadəcə bir şeyi unutmamalarını məsləhət görərdik ki, Azərbaycan özünün suveren ərazisində istədiyini etmək hüququna malikdir. Və bu zaman kiminləsə məsləhətləşməyə ehtiyac duymur. Ortada Qərbin vasitəçiliyi ilə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, sülh danışıqlarının davam etdirilməsi istiqamətində səy və təşəbbüslərin zəiflədiyi mənzərəsi mövcuddur. Bu yöndə ikitərəfli dialoqun İspaniyada planlaşdırılan növbəti raunduna təxminən iki ay vaxt qalıb. Ermənistan iqtidarının o vaxta qədər danışıqlarda "söz sahibi" olmaqdan ötrü hər cür vasitəyə əl atacağı şübhəsizdir.

Elə Azərbaycanın diplomatik müstəvidə mövqelərinin möhkəmlənməsinə mane olmağa çalışan Xankəndidəki terrorçu rejimin sülh prosesini pozmaq üçün müxtəlif hərbi və siyasi təxribatlara əl atacağı da gözləniləndir. Son günlər Azərbaycan Ordusunun Qarabağdakı hərbi mövqelərinin tez-tez atəşə tutulması hayların dediyimiz niyyətində xəbər verir. Əslində, Qarabağda, bütövlükdə, bölgədə sabitliyin pozulmasında katalizator rolunu oynayan xarici dairələrdir. Onları narahat edən məqamlardan biri ABŞ-ın və Avropa İttifaqının Azərbaycanın ərazi bütövlüyü, suverenliyi çərçivəsində sülh sazişini imzalamaq üçün Ermənistan hökumətinə təzyiq göstərməsi faktıdır. Bu situasiya isə sülhyaratma prosesindən kənarlaşdırılan Rusiya, Fransa kimi dövlətləri qətiyyən qane eləmir. Məhz bu kontekstdə Qarabağ iqtisadi rayonumuzda müvəqqəti yerləşdirilmiş rus sülhməramlılarının gözü qarşısında Xankəndidəki separatçıların törətdiyi təxribatların arxasında Kremlin və rəsmi Parisin dayandığını əminliklə söyləyə bilərik.



### "Ermənistana vaxt verilməlidir"

Xankəndidəki qondarma rejimin başında duranların bir qismi Bakı ilə dialoqun əleyhinədir. O da məlumdur ki, dünyanın müxtəlif ölkələrindəki erməni diasporu Qarabağda yaşayan ermənilərin Azərbaycana reinteqrasiyasını istəmir. Əvvəl Ruben Vardanyan Qarabağa Rusiyanın emissarı kimi göndərilmişdi, indi İrəvanın elçisi Samvel Babayan Xankəndidədir və Azərbaycanla dialoq təklif edir. Yaranmış mövcud durumun həm Qarabağdakı separatçılar arasında ziddiyyətlə, həm də Bakının Qarabağdakı erməni vətəndaşlarla dialoq təşəbbüsləri ilə bağlayan **İrəvan Türk Cümhuriyyəti Millət Şurasının sədri Qafar Çaxmaqlı** deyir ki, son vaxtlar Qarabağda separatçılar tərəfindən törədilən təxribatlar sülh prosesinin reallaşmasına mane olmaq məqsədini daşıyır: "Bu səbəbdən Bakının xüsusi əməliyyatla bağlı planı gündəmə gətirilməlidir. İrəvan kimi bəzi dairələr də Qarabağın erməni sakinlərinin hüquq və təhlükəsizliyinin təminatı üçün beynəlxalq mexanizmlərin tətbiqini, həmçinin Laçın–Xankəndi yolunun açılmasını təklif edirlər. Daxildə isə "Qarabağı müdafiə komitəsi" adlı separatçı qurum yerli erməniləri gələcəkdə silahlandırıb Azərbaycana qarşı müqavimət təşkil etməyi irəli sürür. Hesab edirəm ki, erməni silahlılarının Qarabağdan çıxarılması tələbi bütün kəskinliyi ilə qoyulmalı və konkret tədbirlərin həyata keçirilməsi baş verməlidir. Bu tədbirlərin zəmini artıq Brüsseldə qoyulub.



Brüssel sülh danışıqlarında əsas mövzulardan biri məhz silahlı birləşmələrin Qarabağdan çıxarılması olub. Güman edirəm ki, Azərbaycan bununla bağlı Ermənistana vaxt verməlidir. Əgər verilən müddət ərzində qarşı tərəf tələbi yerinə yetirməsə, Azərbaycan antiterror əməliyyatı keçirə bilər. Bu ehtimalla bağlı Qarabağdakı ermənilər arasında gərginlik var".

Q.Çaxmaqlının sözlərinə görə, Qarabağda müşahidə edilən gərginliyin fonunda sülh prosesini irəli aparmaq çətin olacaq: "Çünki İrəvan ən müxtəlif istansiyalarda Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin olunmasının vacibliyi məsələsini qaldırır. Azərbaycan da rəsmən bəyan edib ki, öz vətəndaşları kimi, onların hüquq və təhlükəsizliyini təmin edəcək. Fəqət son olaylar onu göstərir ki, Ermənistanın özü sülhə yaxınlaşmaq fikrində deyil. Əksinə, sülh prosesinə zərbə vurmaq üçün fürsət arayır. "Humanitar böhran", "blokada" hay-küyünü qaldıran Ermənistan bununla sülh prosesinə problem yaratmaq məqsədini güdür. Separatçılar Xankəndinin mərkəzində aksiyalar keçirməklə hadisələri 1988-1989-cu illərdəki vəziyyətə gətirmək istəyirlər. Ona görə də gərginlik hələ bir müddət davam edə bilər".

### "Dəfnə yarpağı"na çevrilənlər

Bu gün Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü tanıyan Qərbin Bakının qondarma rejimin "demontajı" ilə bağlı təklif-tələbini dəstəkləməsi daşnak-separatçı quldur çetesinin canına qorxu salıb. Xankəndidəki xunta rejimini gözləyən qaçılmaz de-folt İrəvanı da ciddi narahat etməyə başlayır. Düzdür, Qarabağda yaranmış gərginlik Ermənistan hakimiyyətinə sülh sazişindən yayınmaq, vaxtı uzatmaq üçün manevr imkanları yaradır. Belə situasiyada İrəvan indi açıq dialoqdan qaçmağa, "xalçaaltı savaşa" üstünlük verməyə çalışacaq. Bu, onlardan ötrü strateji əhəmiyyət kəsb edən məqamdır. Axı Ermənistan hökumətinin başında duranlar yaxşı bilirlər ki, Qarabağ məsələsinin Bakının istəyinə və beynəlxalq hüquqa, nəhayət, ədalətə uyğun həlli onların hakimiyyəti üçün risk yaratmağa qadirdir.

Deyəsən, haylar şüursuz müqavimətin, siyasi korafəhmliyin fəsadı olan inadkarlığın heç bir fayda verməyəcəyini anlamağa başlayıblar. Bunun bariz nümunəsi kimi separatçı-kriminal rejimdə qruplaşmalararası didişməni, bir-birinə hücum çəkmələrini göstərmək olar. İndi onlar nəinki beynəlxalq qurumlar tərəfindən, hətta bu günədək güvəndikləri İrəvan tərəfindən saya alınmadıqlarını, işlənmiş əşya kimi zibil qutusuna atıldıqlarını dərk edirlər. Bəs rusla, fransızla, digərləri ilə şübhəli biznesə girişəndə, çirkli pulların yuyulması ilə məşğul olanda bilmirdilər ki, su boğaza çatanda "şərikləri" onların başından basacaqlar? İrəvandakı isteblişment, eləcə də, Qərbdə və okeanın o tayındakı diaspor-lobbi təşkilatları isə öz siyasi bizneslərində sizdən dəfnə yarpağı kimi istifadə ediblər. İndi də onu həzmə yaramayan məhsul kimi çıxarıb atırlar. Bəs siz özünüzə başqa hansı aqibəti hesablamışdınız?

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

**Azərbaycanın Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan hissəsində baş verən proseslər ölkə ictimaiyyətinin diqqət mərkəzindədir. Prosesləri izlədikcə hayların buradakı separatçı rejiminin başçılarının çıxılmaz vəziyyətə düşdüklərini artıq aydın görmək olar. Onlar ötən ilin dekabr ayından bəri, guya, blokadada olmaları barədə haray-həşir qaldıraraq beynəlxalq ictimaiyyətin gözündə özlərinin yazıq, miskin obrazlarını yaratmağa çalışırlar. Ancaq indi 1980-ci illərin sonu, 1990-cı illərin əvvəlləri deyil. Həmin vaxt ölkəmiz bir sıra çətinliklərlə yanaşı, həm də informasiya blokadasında idi. Hazırda isə Azərbaycan tərəfi ermənilərin bütün yalanlarını anındaca ifşa edir. Bu baxımdan, hayların dediklərinə indi yalnız özləri və onların pul kisəsindən asılı olan şəxslər inanırlar.**

# Separatçılar çıxılmaz durumda

## *Onlar Azərbaycanın yaratdığı yeni reallıqlarla barışmalıdırlar*

Gün keçdikcə dünyada daha çox insan əmin olur ki, Qarabağda hansısa blokadadan söhbət gedə bilməz. Qeyd etdiyimiz kimi, bu isə separatçı rejimin “qlavarları”nın çıxılmaz duruma düşməsini şərtləndirir. Eyni zamanda, Azərbaycanın aprelin 23-də yaratdığı “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsindən gediş-gəlişin intensivləşməsi də dünyanın, necə deyərlər, gözü önündədir. Ölkəmizi tənqid edən dairələr də insanların buraxılış məntəqəsindən sərbəst hərəkət etdiklərini görürlər. Elə dünən yüzdən artıq şəxs Qarabağı tərk edərək Ermənistana gedib. Ümumilikdə isə son bir neçə gün ərzində 500-ə yaxın şəxs məntəqədən sərbəst keçib.



***

Qeyd edək ki, iyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda keçirilən Şuşa Qlobal Media Forumunun açılış mərasimində Gürcüstandan Gela Vasadzenin sualını cavablandıran Prezident İlham Əliyev bildirmişdi ki, Qarabağda hakimiyyəti ələ keçirmiş xunta Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə yaşayanları girov götürüb. Dövlət başçımız qeyd etmişdi ki, ona görə indi yenidən inteqrasiya məsələsi Qarabağın erməni sakinlərinin bax bu yanlışlardan, onları girov götürən, qul kimi istismar edən xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır: “İndi də istismar edirlər, çünki ekofəallar Laçın–Xankəndi yoluna çıxanda, Xankəndidəki sözdə “erməni rəhbərliyi” sadə vətəndaşlara bu yoldan istifadə etməyə icazə vermirdi. Onlar blokpost qoyaraq, bizi blokadada ittiham edirdilər. Bu gün onlar yenə Ağdam–Əsgəran yolunda beton plitələr qoyublar. Siz “Nə üçün ərzaq məhsulları başqa ölkədən gətirilməlidir? Axı “Qarabağ Azərbaycandır” dediniz. Elədirmi? Bunu hamı təsdiq edir? Hamı təsdiq edir. Kimsə bunun belə olmadığını deyirmi? Yox! Onda niyə yüklər başqa ölkədən gətirilməlidir? Bu, məntiqə sığmır. Lakin bu jesti qəbul etmək əvəzinə, orada beton bloklar qoyulur. Kim-kimi bloklayır? Ona görə də bütün məsələ bundadır”.

Azərbaycan Prezidenti tamamilə haqlıdır. Qarabağda yaşayan erməni sakinlər xunta rejiminin girovluğundadır. Erməni əhaliyə öz fikrini ifadə etməyə imkan verilmir, əhali narazılığını bildirən kimi zorakılığa məruz qalır. Bunun örnəyi bu günlərdə Xankəndidə yaşanıb. Qarabağ ermənisi David Minasyan bildirib ki, o, Xankəndidə meydana çıxıb ərzağın əhali arasında düzgün bölüşdürülmədiyini bəyan etdiyi üçün “polis bölməsi”nə aparılaraq döyülüb. Minasyan deyib ki, heç bir siyasi qüvvənin təmsilçisi deyil. Onun çağırışından sonra bir qrup insan meydana çıxıb. Onlar qondarma “dqr”in başçısı Arayik Arutyunyanın “istefasını” və dükanlara ərzaq çatdırılmasını tələb ediblər. Minasyanın sözlərinə görə, əslində, Qarabağda anbarlarda ərzaq ehtiyatının olduğu barədə onun əlində faktlar var. Çünki helikopterlərlə Qarabağa ərzaq daşınmasının dayanmadığını bilir. Amma həmin ərzaq adi, sıravi insanlara çatmır. “Hökumət”ə yaxın adamlar isə həmin ərzaqdan istifadə edə bilir. O qeyd edib ki, evində ərzaq qurtarsa da, Qarabağa daşınan ərzaqdan ala bilmir.

David Minasyan deyib ki, qondarma polislər onu meydanda saxlamaq istəsə də, aksiya iştirakçıları buna imkan verməyib. Amma sonradan evinin yaxınlığında UAZ markalı maşından 6 nəfər düşərək onu saxlayıb. Saxlanmasını belə əsaslandırıblar ki, o, meydanda söyüş söyüb. Dediyinə görə, onun başına torba keçiriblər. Maşında da, “Əsgəran polis şöbəsi”ndə də “polislər” onu döyüblər. Onu döyənlər arasında “Əsgəran polis şöbəsinin rəisi” də olub. Bir gecə şəraitsiz yerdə saxlayıblar.

Qondarma Əsgəran polis şöbəsinin rəhbəri isə “Azadlıq” radiosunun erməni xidmətinə bidirib ki, Minasyan yalan danışır. Nə o, nə də başqa “polislər” Minasyana əl qaldırmayıb.

Qeyd edək ki, David Minsayan axır vaxtlar həm də eynək taxıb, qalstuk əvəzinə yaxasından corab asıb qondarma rejimin başçısı Arayik Arutyunyanı yamsılayırdı. Deyib ki, heç nəyə baxmayaraq, bu işə davam edəcək. Çünki Arutyunyanın ətrafı adı camaat kimi pis yaşamır.

***

Ermənistan ordusunun ehtiyatda olan polkovniki, hərbi ekspert Ayk Naqapetyan isə Ağdam-Xankəndi yolu barədə danışarkən bildirib ki, Qarabağın qapılarını içəridən açmağa cəhd edilir. Aysor.am saytına videomüsahibə verən Naqapetyan deyib ki, Xankəndiyə Ağdam vasitəsilə humanitar yük gələrsə, bu qapılar açılmış olacaq: “Ağdam–Xankəndi yolu humanitar dəhliz rolunu oynamağa başlayanda Laçın yolunu unutmaq olar. Hazırda bu qapının içəridən açılması prosesi gedir, bütün müqavimətlərə baxmayaraq, qapı açılacaq. Onu da deyim ki, Qarabağdakı “hakimiyyət” bu anı yaxınlaşdırır. Əvvəla, bu, o deməkdir ki, onlar vəziyyəti adekvat qiymətləndirməyib, ərzaq təhlükəsizliyinin qayğısına qalmayıblar. Yaxud da ərzaq var, amma qəsdən kritik vəziyyət yaradılıb ki, çıxış yolu yoxdur, yeganə seçim Ağdam yoludur. Digər tərəfdən, özünü könüllülərin komandiri adlandıran şəxsin peyda olması Ağdam-Xankəndi yolundan istifadə etmək üçün hərəkətlərdən biridir. Bununla rəqibləri qorxutmağa çalışırlar ki, Ağdam yolunun açılmasına mane olmasınlar”.

Ayk Naqapetyan deyib ki, bu, mütəşəkkil, əlaqələndirilmiş prosesdir, onun yeganə məqsədi Ağdam-Xankəndi yolunu açmaqdır: “Arayik Arutyunyan öz siyasi komandası ilə müəyyən təminatlara malik olaraq, Qarabağın qapılarını açmağa hazırdır və o, bu təhlükəsizlik zəmanətlərini Nikol Paşinyanın vasitəçiliyi ilə Qərbdən alıb”.

Ancaq gəzən söz-söhbətlərə baxmayaraq, qondarma rejimin rəhbərliyi Ağdam-Xankəndi yolunun açılmasına razılaşdığı haqda yayılan xəbərləri təkzib edib. A.Arutyunyanın “mətbuat katibi” Lusine Avanesyan deyib ki, düzdür, rejim başçısı müxtəlif “dövlət, siyasi və ictimai dairələrlə” müzakirələr aparıb. Görüşlərdə humanitar vəziyyət, təhlükəsizlik məsələləri müzakirə edilib, amma hər hansı qərar qəbul edilməyib. L.Avanesyan onu da deyib ki, müzakirələr davam edir: “Arayik Arutyunyan tezliklə şəxsən vəziyyətlə bağlı açıqlama verəcək, öz yanaşmasını açıqlayacaq”.

Müxalifətdə olan “Ədalət partiyası”nın başçısı da A.Arutyunyanla görüşdə iştirak edib. Partiyanın “deputatı” Metakse Akopyan deyib ki, Ağdam-Xankəndi yolunun açılması ilə bağlı təzyiqlər var. A.Arutyunyan da bu görüşləri ona görə keçirir ki, məsələ ilə bağlı axırda öz qərarını açıqlasın. Qondarma deputat deyib ki, “Ədalət partiyası”nın başçısı Ağdam yolunun açılmasına mənfi münasibətini Arutyunyana çatdırıb. Bununla belə kompromis məsələləri də müzakirə etməyə hazırdırlar. Amma hesab edirlər ki, bu məsələlər şifahi razılaşdırıla bilməz və sənəd imzalanmalıdır.

Göründüyü kimi, Qarabağ separatçıları ciddi çaxnaşma içindədirlər. Onlar vəziyyətdən çıxmaq üçün müxtəlif yollar arayırlar. Aparılan müzakirələr də bunun bir göstəricisidir. Ümid edək ki, onların müzakirələri regionda yaranmış yeni reallıqların dərk edilməsinə gətirib çıxaracaq. Nəhayət, anlayacaqlar ki, müxtəlif instansiyalar, qonşulardan başlayaraq uzaqda yerləşən bəzi ölkələrə qədər müraciət edikləri ünvanlar onların dərdinə əlac etməyəcəklər. Dövlət başçımızın dediyi kimi, ağlı başında olan heç kim Azərbaycanın ərazisində bizimlə döyüşməyəcək. Ona görə də onlar sonda bu reallıqları başa düşməli və barışmalıdırlar.

**Səxavət HƏMİD,**
**“Xalq qəzeti”**

### Ekspert rəyi

**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**



– Vətən müharibəsindən ötən üç ilə yaxın dövr ərzində Azərbaycan əsgərinə, dinc əhalisinə qarşı Qarabağ iqtisadi rayonundan atəş açılıb, atəşkəs dəfələrlə pozulub. Azərbaycan bununla bağlı “Fərrux”, “Qisas” kimi əməliyyatlar keçirib adekvat cavab verərək düşməni yerində oturda bilib. Daha sonra separatçıların Laçın yolundan qanunsuz silah-sursat daşıdıqları aşkarlandı. Bunun qarşısını almaq üçün Azərbaycan sərhəd keçid məntəqəsini yaratdı. Hələ də Azərbaycanın postuna qumbara atan terrorçunun aqibəti bilinmir.

Bundan əlavə, logistik yollar hələ işləmir. Ağdam–Xankəndi yolu Azərbaycan üçün bağlıdır. Burada Rusiya sülhməramlılarının da üzərinə böyük öhdəlik düşür. Reinteqrasiya məsələsi sülhməramlı qüvvələrin səlahiyyətinə aiddir. Ancaq onlar bu işə nəinki kömək edir, əksinə Qarabağdakı ermənilərin Azərbaycanla əlaqə qurmalarına mane olurlar. Azərbaycan Qarabağın erməni sakinlərinə heç bir təhlükə yaratmayıb və yaratmayacaq, ancaq Rusiya sülhməramlıları ermənilərin yaxınlığında müdafiə mövqeləri yaradır və ora terrorçuların yerləşdirilməsinə göz yumur, onları müdafiə edirlər. Həmin terrorçuların silahı isə Azərbaycan əsgərinə və dinc əhalisinə yönəldilib. Ona görə də Azərbaycan cəmiyyəti onların Qarabağdakı fəaliyyətini sorğulayır. Ölkəmiz Qarabağın erməni əhalisinin hüquqlarını və təhlükəsizliyini təmin edəcəyini bəyan edib. İndiyədək verdiyimiz bir söz belə havada qalmayıb. Qarabağ ermənilər edilən çağırışları qulaqardına vurmamalı, canlarını xunta rejimindən qurtararaq Azərbaycan cəmiyyətinə yenidən inteqrasiya etməlidirlər.

# Ay Haccə, bizə nömrə gəlmə

## *yaxud ermənipərəst Lhəbibin “dəsmal diplomatiyası”*

**Azərbaycanda belə bir atalar sözü var: “Düzəlmişdi hər yarağımız, qalmışdı saqqal darağımız”. Bu günlərdə Belçikanın Xarici işlər naziri Haccə Lhəbibin Cənubi Qafqaz regionuna səfərindəki təfərrüatlara diqqət yetirərkən, məhz həmin atalar sözü yada düşür. Əlbəttə, kobud şəkildə deyə bilərik ki, ay Belçika, get işinlə məşğul ol. Amma nəzakət xatirinə demirik. Üstəlik, xanım Lhəbibin paytaxtımıza gəlməsi, Xarici İşlər Nazirliyində keçirdiyi görüş onu deməyə əsas verir ki, diplomatik etiketləri gözləyirik. Bəlkə, gözləniləsi deyil. Yəni, belə nəzakətli davranışımız Belçikanın xarici işlər naziri üçün həddindən artıqdır.**



Birincisi, Belçika hökuməti hara, Azərbaycan–Ermənistan münasibətləri hara? Paytaxt Brüsseldə bir sıra vacib beynəlxalq təşkilatların baş ofislərinin yerləşməsi hələ o demək deyil ki, ölkə dünyada, o cümlədən, Cənubi Qafqaz regionunda baş verən hadisə və proseslərdə söz demək imtiyazına malikdir. Belçika, ilk növbədə, gedib sözünü buyruğu ilə oturub-durduğu Fransaya desin. Bacarırsa, onun kurasiyasından çıxsın. Sanki regiona səfər reallaşdıran Belçikanın deyil, Fransanın xarici işlər naziri idi. Birincinin proqramı ikincidən heç nə ilə fərqlənmirdi...

İkincisi, tutalım dünyada hansısa qlobal dəyişiklik baş verib, Belçika söz sahibinə çevrilib. Hətta, belə olsa da, belə ölkənin Xarici işlər naziri İrəvanda peyda olarkən və bölgədə sülhün yaranmasını arzuladığını bildirərkən, heç bir halda tərəflərin hansısa birində qıcıq doğuran hərəkətlərə yol verməməlidir. Ancaq xanim Lhəbib bunu etdi. Gedib saxta “erməni soyqırımı” qurbanları üçün ucaldılmış şərəfsizlik abidəsinə baş çəkdi. Belə sülh istəyi olar? Axı, Lhəbib Fransanın xarici işlər naziri Katrin Kolonna deyil. Bilirik ki, xanım Kolonna İrəvana gedəndə sözügedən mənfur abidəyə baş çəkməsə, allergiyası tutur. Bunu başa düşürük. Belçikanın XİN rəhbərini nə üçün başa düşək? Yəni, onu da başa düşək? Başa düşək ki, ermənipərəstlərin sayı artsın?

Nəhayət, hansı səbəbdən Belçikanın Fransadan daha böyük ermənipərəst olmaq arzusunu anlayışla qarşılayaq? Hər halda, Roma papasından daha artıq katoliklik heç kəsə xeyir gətirməyib. Belçika da ermənipərəst olmağı düşünməsin və deməsin ki, Azərbaycan Laçın dəhlizini açmalıdır, ay nə bilim, insan hüquqları, filan.

Hələ xanım Lhəbib daha incə məqamlara, sarı simlərə toxunur. Onun sözlərindən belə anlaşılır ki, Azərbaycan uzun illər məhrumiyyət yaşayıb, indi erməniləri başa düşsün. Bir qədər kövrək adam həmin an cibindən dəsmal çıxarıb XİN rəhbərinə uzadardı ki, gözünün yaşını silsin. Gələcəyə doğru beləmi baxılır? Xanım Lhəbib İrəvana gedib saxta soyqırımı abidəsini ziyarəti proqrama daxil edirsə, Bakıda Xocalı abidəsinə baş çəkmirsə, bu, gələcəyə baxmaq olur?

Azərbaycan iki ildən artıqdır Ermənistana jest edir. Ölkənin durumu anlaması, vəziyyətlə barışması, ədalətli olması üçün şans da yaradır. Bunu İrəvan rəsmiləri anlayırlarmı? Yox! Krallığın XİN rəhbəri başa düşə bilmir ki, Ermənistan iqtidarını Qarabağ ermənilərinin taleyi qətiyyən maraqlandırmır. Onu düşündürən Qarabağ işğalının davamıdır. Ən pisi isə budur ki, lahbiblər, corclar və digərləri bu “davamlılığı” leqallaşdırmağa girişiblər.

Bakıda Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla birgə keçirdiyi mətbuat konfransında “Sizin övladlarınız sizi bu jestinizlə xatırlayacaq” – deyir xanım Lhəbib. Yəni, ermənilərə güzəştə gedin, imkan verin, Laçın yolunu açıq qapı eləsinlər, istədikləri vaxt oradan gəlib-getsinlər, əlbəttə, sərhəd filan da olmasın. Görəsən, bircə dəfə avropalıların yadına düşürmü ki, o yoldan Azərbaycan vətəndaşının, sıravi azərbaycanlının keçib İrəvana getmək imkanı yoxdur? 1988-1991-ci illərdə Ermənistandan, öz doğma yurd-yavalarından, evlərindən didərgin salınmış soydaşlarımızın da, həmçinin. Xanım XİN başçısı bunu İrəvanda olarkən, dilinə gətirdimi? Yox! İndi durub Bakıda sentimentallıq havasına köklənib. Yox bir, jest edəcəkmişik. Biz nə vaxt erməni qövmünə jest etmişiksə, itirmişik. 1918-ci ildə jest etdik, İrəvanı itirdik, 1920-ci ildə jest etdik, Zəngəzurla vidalaşdıq. Yumşaq davrandıq, Qarabağı əldən verdik. İndi də güzəştə gedək ki, bir on ildən sonra oradakı separatçı rejim güclənib üstümüzə gəlsin! Yəqin, Belçikanın Xarici işlər nazirinin “dəsmal diplomatiyası” buna hesablanıb.

Bu, nə yanaşmadır? Bu, nə mənəvi oyunbazlıqdır xanım Lhəbib çıxarır? Qətiyyən anlamaq olmur. Bəlkə, adam heç nazir deyil, hansısa humanitar yönümlü qeyri-hökumət təşkilatının rəhbəridir və onu səhvən nazir kimi təqdim ediblər? Bəlkə, əlahəzrət kral, Belçika hökuməti nəyisə səhv salıb? Yəni, bir vəzifəli şəxs necə bu qədər mənasız söz danışa bilər? Mənasız danışmağı bir yana, adam beynəlxalq hüquqa da bələd deyil. Bilmir, yaxud bilmək istəmir ki, Qarabağ Azərbaycanın suveren ərazisidir. Azərbaycan rəsmilərinin Qarabağda humanitar böhran adı ilə beynəlxalq ictimai rəyə sırınan erməni şousuna reaksiyasından da xəbəri yoxdur?

...Ağdam–Xankəndi yolu. Axı, bu yolla bağlı Bakı ilə İrəvan arasında vasitəçilik missiyasını yerinə yetirən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel dəfələrlə söz açıb. Bir neçə gün əvvəl də bu barədə fikirlərini bölüşmüşdü. Yəqin, həmin vaxt xanım Lhəbibin başı “erməni soyqırımı” abidəsi önünə hansı gülləri alıb qoymaq kimi “qlobal əhəmiyyətli” vəzifəyə qarışmışdı. Başqa nə düşünək? Deyirik ki, Qarabağdakı separatçı rejim Ağdam–Xankəndi yolunun işə düşməsinə, bölgə əhalisinə yardım göstərməyimizə imkan vermir, durub gözlərini döyürlər. Hələ bəziləri sırtıqcasına üzümüzə qayıdır ki, bəs, Ağdam – Xankəndi yolu Laçın yoluna alternativ ola bilməz. Niyə? Nə üçün? Yenə qanmaz-qanmaz üzümüzə baxırlar. Əslində, çox yaxşı qanırlar hər şeyi...

Belçikanın xarici işlər naziri deyir ki, tarixdə müharibələr olub, amma sülh əldə edilib, burada (Azərbaycanla Ermənistan arasında – red.) müxtəlif formatlar müzakirəyə çıxarıla və diskussiyalar açıla bilər. Görəsən, o, belə danışarkən, öz dediklərinə inanır? Yəni, həqiqətən, inanır ki, Ermənistan dövləti və başıpozuq erməni cəmiyyəti format və diskussiyanın nə olduğunu bilir? Əmin deyilik ki, Haccə xanım sadəlövhdür. Sadəcə,“dəsmal diplomatiyası”nda sabun köpürtmək üzrə mahirdir. Nə deyək, bəlkə bilməmişik, Cənubi Qafqaza Lhəbib yox, sülh ilahəsi Afina özü gəlibmiş?

Ölkəmizin XİN rəhbəri Ceyhun Bayramov sözügedən mətbuat konfransında belçikalı həmkarına replika kimi ikili standartlar məsələsini çox yerində xatırlatdı. Çünki Lhəbibin İrəvandakı və Bakıdakı danışıqları həmin ikili standartlar siyasətinin saxta humanizm sentimentallığı ilə maskalanmasından başqa bir şey deyildi. Nə isə...

**Ə.RÜSTƏMOV,**
**“Xalq qəzeti”**

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin sentyabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi -<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 6, 22 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 7 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 8, 15, 22 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi -<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 21 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan<br>işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla)<br>xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna<br>daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna<br>daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 29 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası<br>Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin sentyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Baş prokuror**<br>Kamran Əliyev | Şabran | Şabran, Siyəzən, Xızı | 01 |
| 2. | **Gənclər və idman naziri**<br>Fərid Qayıbov | Şabran | Şabran, Xaçmaz | 06 |
| 3. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri**<br>Rəşad Nəbiyev | Astara | Astara, Lənkəran, Lerik, Masallı, Cəlilabad, Yardımlı | 11 |
| 4. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi**<br>Mürsəl İbrahimov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 12 |
| 5. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**<br>Bahar Muradova | Tərtər | Tərtər, Bərdə | 13 |
| 6. | **Ədliyyə naziri**<br>Fikrət Məmmədov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 14 |
| 7. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**<br>Anar Quliyev | Cəlilabad | Cəlilabad, Biləsuvar, Cəbrayıl | 14 |
| 8. | **Ekologiya və təbii sərvətlər naziri**<br>Muxtar Babayev | Ağcabədi | Ağcabədi, Ağdam, Laçın | 15 |
| 9. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri**<br>Zaur Mikayılov | Quba | Quba, Qusar | 15 |
| 10. | **"Azərişıq" ASC-nin sədri**<br>Vüqar Əhmədov | Göygöl | Göygöl, Daşkəsən | 15 |
| 11. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Mübariz Qurbanlı | Ucar | Ucar, Kürdəmir, Göyçay, Zərdab | 19 |
| 12. | **Energetika naziri**<br>Pərviz Şahbazov | **Füzuli**<br>(Horadiz şəhəri) | Füzuli, Beyləqan, Xocavənd | 22 |
| 13. | **Əmək və əhalinin sosial müdafiəsi naziri**<br>Sahil Babayev | Mingəçevir | Mingəçevir, Yevlax | 22 |
| 14. | **İqtisadiyyat naziri**<br>Mikayıl Cabbarov | Astara | Astara, Lənkəran, Lerik | 22 |
| 15. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | Şəki | Şəki, Qax | 22 |
| 16. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri**<br>Saleh Məmmədov | Masallı | Masallı, Yardımlı | 22 |
| 17. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri**<br>Qoşqar Təhməzli | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 22 |
| 18. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən**<br>İlham Mirzəliyev | Biləsuvar | Biləsuvar, Cəlilabad, Cəbrayıl | 22 |
| 19. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru**<br>Ruslan Əliyev | Kürdəmir | Kürdəmir, Ucar, Zərdab | 22 |
| 20. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri**<br>Rövşən Rzayev | Şirvan | Şirvan, Hacıqabul | 27 |
| 21. | **Daxili işlər naziri**<br>Vilayət Eyvazov | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı | 28 |
| 22. | **Mədəniyyət naziri**<br>Adil Kərimli | Mingəçevir | Mingəçevir, Yevlax | 28 |
| 23. | **Elm və təhsil naziri**<br>Emin Əmrullayev | İmişli | İmişli, Beyləqan, Saatlı, Sabirabad, Xocavənd | 29 |
| 24. | **Fövqəladə hallar naziri**<br>Kəmaləddin Heydərov | Göygöl | Göygöl, Daşkəsən | 29 |
| 25. | **Dövlət Gömrük Komitəsinin sədri**<br>Şahin Bağırov | Yevlax | Yevlax, Mingəçevir | 29 |
| 26. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri**<br>Zaur Əliyev | Sabirabad | Sabirabad, Saatlı, İmişli, Hacıqabul | 29 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

## Belçikalı deputatların yalnız Ermənistana səfər etməsi balansı pozur



**Avqustun 25-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Belçika Krallığının xarici işlər, Avropa işləri, xarici ticarət və federal mədəni institutlar naziri Haccə Lhəbibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "XQ"-yə verilən məlumata görə, görüşdə Sahibə Qafarova parlamentlərarası əlaqələri Azərbaycanla Belçika arasında ikitərəfli münasibətlərin əsas komponentlərindən biri adlandırıb.

Hazırda ölkəmizdə və regionda mövcud olan vəziyyət barədə qonağa məlumat verən Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində öz torpaqlarının Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoyub və ərazi bütövlüyünü bərpa edib. Hazırda məcburi köçkünlərimizin öz doğma torpaqlarına qayıtmasını nəzərdə tutan Böyük Qayıdış proqramına start verilib.

Sahibə Qafarova görüşdə, həmçinin Belçika parlamentində son 3 ildə Azərbaycanla bağlı qəbul olunmuş 5 birtərəfli və qərəzli qətnaməni kəskin tənqid edərək, vurğulayıb ki, bu qətnamələr regionumuzdakı vəziyyəti düzgün əks etdirmir. O, eyni zamanda, belçikalı deputatların yalnız Ermənistana səfər etməsinin region ölkələrinə münasibətdə balansı pozduğunu bildirib.

Nazir Haccə Lhəbib Azərbaycanla Belçika arasında qarşılıqlı səfərlərin önəmini diqqətə çatdıraraq, bu səfəri çərçivəsində bir çox məsələlər haqqında müzakirələr apardığını bildirib. Belçikalı nazir regionda sülhün və təhlükəsizliyin təmin olunmasının, o cümlədən, ərazilərin minalardan təmizlənməsinin vacibliyini vurğulayıb. O deyib ki, ölkəsi yalnız sülhü və bu ərazilərin yenidən bərpasını təşviq etmək niyyətindədir. Haccə Lhəbib vurğulayıb ki, 30 il ərzində bu ərazilərdə çoxlu dağıntılar baş verib.

**"Xalq qəzeti"**

## Sərsəng Su Anbarının taleyi ilə bağlı birgə bəyanat

**Sərsəng Su Anbarında yaranmış vəziyyətlə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Su Ehtiyatları Agentliyi birgə bəyanat yayıblar. Sənəddə deyilir:**

Otuz ildən artıqdır ki, 1976-cı ildə Tərtərçayın üzərində yaradılmış və hazırda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Sərsəng su anbarı Ermənistan və onun himayə etdiyi qüvvələr tərəfindən məqsədyönlü şəkildə ekoloji və sosial-iqtisadi terror vasitəsi kimi istifadə olunur. Qəza vəziyyətində olan su anbarı aşağı hissədə yerləşən yaşayış məntəqələri, təsərrüfatlar və infrastruktur obyektləri üçün ciddi təhlükələr yaradır.

Bununla əlaqədar, Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunmuş 2016-cı il 26 yanvar tarixli 2085 nömrəli Qətnamədə Ermənistanın hərəkətləri Azərbaycan vətəndaşları üçün humanitar və ekoloji problemlərin yaradılmasına yönəlmiş ekoloji təcavüz kimi qiymətləndirilib.

Sənəddə xüsusilə vurğulanır ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yerləşən Sərsəng su anbarının düzgün idarə olunmaması çoxsaylı insan tələfatı və yeni humanitar böhrana səbəb ola biləcək böyük fəlakətə gətirib çıxara bilər.

Ermənistan və onun himayə etdiyi qüvvələr ekoloji təcavüzlə yanaşı, böyük kənd təsərrüfatı potensialı və münbit torpaq ehtiyatlarına malik Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının ərazilərinə suvarma tələb olunan mövsümlərdə su anbarından qərəzli şəkildə suyun verilməsinə mane olaraq Azərbaycanın iqtisadiyyatına külli miqdarda ziyan vurmuş və vurmaqda davam edir.

Ermənistanı himayə etdiyi qüvvələr vasitəsilə sözügedən rayonların əhalisinin Birləşmiş Millətlər Təşkilatının dayanıqlı inkişaf məqsədlərindən biri kimi "Təhlükəsiz və təmiz suya əlçatanlıq" təməl insan hüquqlarının pozulmasına, regionun ekosisteminin deqradasiyasına, fauna və floranın itirilməsinə səbəb olan hərəkətlərindən əl çəkməyə çağırırıq.

**"Xalq qəzeti"**

## Hərbi attaşelərə pilotsuz uçuş aparatlarımız göstərilib

**Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri üçün Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinə tanışlıq səfəri təşkil olunub.**



Nazirlikdən "XQ"yə verilən məlumata görə, iyirmi iki dövlətin hərbi attaşelik aparatının nümayəndələrinə hərbi hissənin əsas fəaliyyət istiqamətləri barədə brifinq təqdim olunub, Vətən müharibəsi zamanı PUA-ların tətbiqi ilə bağlı videoçarxlar nümayiş etdirilib, sonra onları maraqlandıran suallar cavablandırılıb.

Səfər çərçivəsində qonaqlara Azərbaycan Ordusunun arsenalında yer alan bəzi pilotsuz uçuş aparatları əyani olaraq göstərilib, onların taktiki-texniki xüsusiyyətləri barədə məlumat verilib.

**"Xalq qəzeti"**

Yeni ənənələr

# Azərbaycanda birinci sığorta festivalı

## Paytaxtda başlayan maarifləndirmə aksiyası bölgələrdə davam edəcək




**Bu gün Azərbaycanda sığorta festivalı öz işinə başlayır. Mərkəzi Bank, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə əməkdaşlığı çərçivəsində keçirilən festival sentyabrın 7-dək davam edəcək.**

Ölkəmizin sığorta sahəsi üçün əlamətdar sayılan bu tədbirə həsr olunmuş mətbuat konfransında Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayev bildirib ki, 2021-ci ildən ölkə əhalisinin sığorta savadlılığının artırılması məqsədilə həyata keçirilən genişmiqyaslı maarifləndirmə layihəsi çərçivəsində çoxşaxəli tədbirlər davam etdirilir. Həmin tədbirlərdən biri də “Sığorta festivalı” layihəsidir.

İcraçı direktorun sözlərinə görə, avqustun 26-da Bakı şəhərinin Dənizkənarı Milli Parkının ərazisində başlayan sığorta festivalının daha sonra Sumqayıt, Gəncə, İsmayıllı, Quba, Lənkəran, Mingəçevir, Gədəbəy, Şəki və Zaqatalada keçirilməsi nəzərdə tutulur. Yeri gəlmişkən, tədbir ölkəmizdə fəaliyyət göstərən sığorta şirkətlərinin iştirakı ilə “edutatement” formatında təşkil olunacaq. Festival Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 may 2019-cu il tarixli 354s nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Sığorta sektorunun inkişaf etdirilməsi üçün görülməli işlərlə bağlı Tədbirlər Planı”nın maarifləndirmə və təbliğat-təşviqat tədbirinin icrası məqsədilə Mərkəzi Bank, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birlikdə həyata keçirdiyi genişmiqyası maarifləndirmə layihəsinin tərkib hissəsidir.

Maliyyə sisteminin tərkib hissəsi olan sığorta bir iqtisadi kateqoriya olaraq, baş verən bu və ya digər xoşagəlməz hallardan, fövqəladə hadisələrdən vurulan ziyanın aradan qaldırılması, vətəndaşların şəxsi həyatları ilə əlaqədar olan hadisələr zamanı onlara maliyyə yardımlarının edilməsi ilə yaradılan məqsədli pul vəsaiti fondlarının yaradılması və istifadəsi prosesidir.

Xatırladaq ki, Azərbaycanda sığorta işinin təşkilinə XIX əsrin ortalarında başlanılıb. Respublikada sığorta işi kapitalist istehsal münasibətlərinin inkişafı, neft sənayesinin meydana gəlməsi və sahibkarlığın fəallaşması ilə sıx əlaqədar olub. Həmin dövrdə Azərbaycanda xarici ölkələrdən olan şirkətlərin filialları fəaliyyət göstərirdi. Sığorta işinin xüsusi aktuallıq kəsb etdiyi neft və milyonlar səltənətində, əsasən, dəniz gəmilərinin sığorta edilməsi üzrə ixtisaslaşmış ingilis şirkəti “Lloyd”un filialları, habelə “Rus Lloyd”un və Almaniyadan olan ingilis şirkətinin iki nümayəndəliyi, Rusiya və İranin sərhəd limanlarına qədər daşınan yüklərin sığortası ilə məşğul olan “Repman və Rust” ticarət evi ilə təqdim edilən “Şimali Alman Lloyd”u, eləcə də gəmilərin və yüklərin sığortasını aparan “Alman, Livantiya xətti” cəmiyyəti fəaliyyət göstərib.

Mənbələrdə qeyd edildiyi kimi, 1910-cu ildə Bakıda sığorta sahəsində 18 şirkət xidmət göstərib ki, onlardan da ən böyüyü “Rus sığorta cəmiyyəti” olub. Həmin vaxt Bakıda sığorta işinin əsasını isə Xəzər dənizində üzən gəmilərin sığortası təşkil edib. Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə sığorta fəaliyyəti yeni inkişaf mərhələsinə qədəm qoyub. Keçmiş SSRİ-nin başqa respublikalarında olduğu kimi, Azərbaycanda da dövlət sığorta sistemi təşkil edilib.

Həmin dövrdə respublikada sığorta işinin inkişafında müəyyən rol oynamış Azərbaycan SSR Dövlət Sığortası Baş İdarəsi və SSRİ “İnqosstrax”nın Bakı şöbəsi fəaliyyət göstərib.1931-ci ildən etibarən isə sığorta əməliyyatları dövlət sığortasında cəmlənməyə başlayıb. Ötən əsrin 80-ci illərinin sonlarınadək respublikamızda sığorta fəaliyyəti ilə iki təşkilat–Azərbaycan Respublikasının Dövlət Sığorta Şirkəti və SSRİ-nin xarici dövlət sığorta təşkilatının Bakı şəhərindəki şöbəsi tərəfindən həyata keçirilib.

Müstəqilliyin ilk illərindən etibarən Azərbaycanda sığorta işi yeni dövrün tələblərinə uyğun inkişaf etməyə başlayıb. 1991-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Sığorta Nəzarəti yaradılıb. Beləliklə də, ölkəmizdə sığorta xidmətləri bazarının inkişafının tənzimlənməsi, sığortaçıların, sığortalıların və dövlət mənafeyinin müdafiəsi, metodiki rəhbərliyin həyata keçirilməsi, müvafiq normativ hüquqi sənədlərin hazırlanması və s. işlər bu təşkilata həvalə olunub.

Ölkəmizdə milli sığorta bazarı isə 1992-ci ilin əvvəlindən formalaşmağa başlayıb. 1993-cü ilin yanvar ayında Azərbaycan Respublikasının Milli Məclisi ölkəmizin tarixində ilk dəfə olaraq “Sığorta haqqında” Azərbaycan Respublikasının Qanununu qəbul edib.

Hazırda Azərbaycanda sığorta bazarı özünün yüksək inkişaf dövrünü yaşayır. Ölkəmizdə fəaliyyət göstərən sığorta şirkətləri 40-dan çox icbari və könüllü sığorta növünü təklif edirlər. Dünyanın bir sıra ölkələri ilə müqayisədə isə bu olduqca azdır. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda inkişaf etmiş ölkələrdə 300-dən çox müxtəlif sığorta xidməti göstərilir.

Yeri gəlmişkən, “Azərbaycan Sığortaçılar Assosiasiyası” İctimai Birliyinin icraçı direktoru Elmar Mirsalayevin bildirdiyinə görə, 2023-cü ildə ölkəmizdə sığorta haqlarının 1 milyard manatı keçəcəyi proqnozlaşdırılır. Onun sözlərinə görə, bu ilin ilk yarısında yığılan sığorta haqları ötən ilin eyni dövrü ilə müqayisədə 648,945 milyon manat və ya 32 faiz çox olub. Ümumilikdə isə 2022-ci ildə Azərbaycandakı 20 sığorta şirkətinin xətti ilə 970,823 milyon manat sığorta haqqı toplanılıb.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi

**Aftandil HACIYEV,**
**sabiq sığorta işçisi**



Azərbaycanda Sığorta festivalının keçirilməsi ilə bağlı xəbəri böyük sevinc hissi ilə qarşıladım. Hər şeydən əvvəl, paytaxt Bakı ilə yanaşı, ölkəmizin bir sıra iri şəhər və rayonlarında keçiriləcək festivalı ölkəmizdə sığorta işinin, sığorta bazarının daha da inkişafına səbəb olacaq bir tədbir kimi qiymətləndirirəm.

Mən 51 il sığorta sahəsində fəaliyyət göstərmişəm. Həmin müddətdə respublikamızda sığortaçılarla müntəzəm tədbirlər həyata keçirilib. Bu baxımdan sığorta sahəsində kadr hazırlığını, sığortaçılar üçün təlim seminarlarının keçirilməsi və digər tədbirləri qeyd edə bilərəm. Həmin işlər ona xidmət edirdi ki, bu sahədə fəaliyyət göstərən kadrlar sığorta işini yaxşı mənimsəsinlər. Yeri gəlmişkən, sığorta spesifik sahə olduğundan onun incəliklərinə yaxşı bələd olmayanlar bu işdə uğur qazana, sığorta işinin təşkilinə və sığorta bazarının inkişafına nail ola bilməzlər. Yəni sığortalı bu işin mahiyyətini, müvafiq müqavilələrin nə üçün bağlandığını, sığorta haqqının nə üçün yığıldığını yaxşı mənimsəməlidir.

Bir haşiyə çıxmaq istəyirəm. 2021-ci ildə mən sığorta sahəsində çalışanda Azərbaycan Mərkəzi Bankının təşəbbüsü ilə Sığortaçılar Assosiasiyasının icbari sığorta bürosu tərəfindən belə bir razılığa gəlindi ki, sığorta sahəsində maarifləndirmə işinin gücləndirilməsi üçün müəyyən tədbirlər görülsün. Bununla əlaqədar kütləvi informasiya vasitələrindən, televiziyalardan nümayəndələr dəvət olundu, müəyyən tədbirlər planı hazırlandı. Bütün bunlar isə ölkəmizdə sığorta işinin inkişafına xidmət göstərmək məqsədi daşıyırdı.

Sığorta iqtisadiyyatın aparıcı sahələrindəndir. Bu vacib sahə hər bir fiziki və hüquqi şəxsə, sahibkarlara, aqrar sahədə, sənayedə, yükdaşımada və digər sahələrdə hər bir vətəndaşa müəyyən sığorta təminatı yaradır. Sığortanın könüllü və icbari növündən asılı olmayaraq hər bir sığortalı sığortanın mahiyyətini bilməlidir. Hesab edirəm ki, ölkəmizdə ilk dəfə olaraq keçirilən sığorta festivalı bu baxımdan müstəsna əhəmiyyət kəsb edir. Sığorta işinin daha da inkişaf etdirilməsi üçün bu kimi tədbirlərin keçirilməsi çox yaxşı təşəbbüsdür. Sonda ölkəmizin bütün sığorta işçilərinə, eləcə də bu vacib tədbirin təşkilatçılarına uğurlar arzulayıram.



# Oktyabr Bakıda “bal ayı” olacaq

**Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə oktyabrın 2–22-də Bakıda arıçılıq məhsullarının 23-cü Respublika Sərgi-Satış Yarmarkası keçiriləcək.**

Kənd Təsərrüfatı Nazirliyindən “X.Q”-yə verilən məlumata görə, yarmarka Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ünvanında (metronun “Gənclik” stansiyasının yaxınlığı) baş tutacaq. Yarmarkada satışa çıxarılacaq balların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizlilyi Agentliyi nəzarət edəcək. Arıçı fermerlər iştirak üçün əvvəlcədən qeydiyyatdan keçməlidirlər. Qeydiyyat prosesi bal.kendden.az saytı vasitəsi ilə onlayn qaydada həyata keçiriləcək. Arıçılar sayta daxil olaraq müvafiq xanalar üzrə şəxsi və təsərrüfatları barədə məlumatları qeyd etməlidirlər. Yarmarkada iştirak etmək istəyən arıçılar 28 avqust saat 08:00-dan 1 sentyabr saat 20:00-dək qeydiyyatdan keçməlidirlər. İştirakı təsdiqlənmiş arıçılara 7 sentyabr tarixində SMS-bildirişlər göndəriləcək, onlara məhsullarını gətirməli olduqları tarix barədə məlumat veriləcək.

Yarmarkada arıçılara fəaliyyət göstərdikləri rayonların arıçı sayına uyğun olaraq proporsional qaydada müvafiq sayda yer ayrılacaq. Bu il təşkil olunan bal yarmarkasında növbəlilik əsasında ilk qeydiyyatdan keçmiş maksimum 250 arıçı iştirak edəcək. Tədbirə 2023-cü il avqustun 25-dək arıçılıq təsərrüfatlarını Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan edən və minimum 40 arı ailəsi olan fermerlər müraciət edə bilərlər. Bir arıçı yarmarkada maksimum 400 kiloqram bal və maksimum 30 ədəd arı şanı satışa çıxara bilər.



Nazirliyin məlumatına əsasən, bal nümunələrinin qəbulu sentyabrın 11-dən 17-dək davam edəcək. Bal məhsullarının qəbulu zamanı arıçı fermer şəxsiyyətini təsdiq edən sənəd və gətirmiş olduğu məhsula müvafiq olaraq baytarlıq şəhadətnaməsi təqdim etməlidir. Yarmarka ödənişli, iştirak haqqı 150 manatdır. Bu məbləğə satış üçün yer və lazımi ləvazimatlarla təmin olunma, yarmarkanın marketinq işlərinin aparılması, loqistika, anbar işinin təşkili və digər xidmətlər daxildir. İştirak üçün ödənişlər yalnız plastik kart (nağdsız ödəniş) vasitəsilə qəbul olunacaq.

Bal məhsulları anbara daxil olduqdan sonra keyfiyyət yoxlanışı üçün Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən istehsalçının iştirakı ilə nümunələr götürüləcək. Analiz üçün götürülmüş nümunələrin nəticələri mütəmadi olaraq təşkilat komitəsinə bildiriləcək. Keyfiyyət yoxlanışının nəticələri standartlara uyğun olmayan arıçılıq məhsullarının satışına icazə verilməyəcək.

***“Xalq qəzeti”***

# “Sollers” Azərbaycanda avtomobil buraxacaq



**Rusiyanın avtomobil istehsalçısı “Sollers” şirkəti 2023-cü ilin payızında Azərbaycanda fəaliyyətə başlayacaq.**

Bu barədə Rusiya şirkətinin satış və marketinq direktoru Marat Şarapov məlumat verib. O bildirib ki, şirkət avtomobillərin istehsalını “Azərmaş” Məhdud Məsuliyyətli Cəmiyyətində həyata keçirəcək. “Biz bu yaxınlarda Azərbaycanla əməkdaşlığın inkişafı ilə bağlı müqavilə bağlamışıq. Payızda bu layihənin icrasına başlanacaq. Bu, bizim ilk ixrac bazarımız olacaq”,–deyə şirkət rəhbəri əlavə edib. Onun sözlərinə görə, “Sollers” şirkəti digər ölkələrin bazarlarına da çıxmağı hədəflədiyini yib.

Xatırladaq ki, bu il mayın 19-da “Rusiya-İslam Dünyası: Kazan Forumu” çərçivəsində “Sollers” və “Azərmaş” MMC arasında Azərbaycan Respublikasında “Sollers” yüngül kommersiya avtomobillərinin istehsalı üzrə əməkdaşlıq memorandumu imzalanıb.

***“Xalq qəzeti”***

# 7 ayda bölgələrdə 7,3 milyard manatlıq məhsul istehsal edilib

**2023-cü ilin yanvar-iyul ayları üzrə ölkəmizdə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 7 milyard 262,4 milyon manat təşkil edib. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çoxdur.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə aqrar sahədə istehsal olunmuş ümumi istehsalın 3 milyard 411,4 milyon manatı heyvandarlıq, 3 milyard 851 milyon manatı isə bitkiçilik məhsullarının payına düşüb. İlin ötən 7 ayında heyvandarlıq məhsulları üzrə 3,4 faiz, bitkiçilik məhsulları üzrə isə 3,2 faiz artım qeydə alınıb.

2023-cü ilin yanvar-iyul aylarında ölkədə quş əti də daxil olmaqla diri çəkidə 327 min ton ət, 1 milyon 305,8 min ton süd, 1 milyon 305,1 milyon ədəd yumurta, 14,4 min ton yun və 356,6 ton barama istehsal olunub. 2022-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 3,1 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 12 faiz, barama istehsalı 5,1 faiz artıb. Yun istehsalı isə 2,6 faiz azalıb.

***“Xalq qəzeti”***



# Mənzil tikintisi 44 faiz artıb

**Cari ilin yanvar-iyun aylarında Azərbaycanda ümumi sahəsi 891 min 689 kvadrat metr olan 8 min 130 ədəd yaşayış evi tikilib istifadəyə verilib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, əvvəlki ilin 6 ayı ilə müqayisədə 44,3 faiz çoxdur. Belə ki, 2022-ci ilin ilk 6 ayında ölkədə ümumi sahəsi 786 min 401 kvadratmetr olan 5 min 636 yaşayış evi tikilib istifadəyə verilib. Xatırladaq ki, bu ilin birinci yarısında istifadəyə verilmiş mənzillərin 4592-si əhalinin, 1874-ü qeyri-dövlət müəssələrinin, 1664-ü isə dövlət müəssisələrinin payına düşüb.

Bundan əlavə, hesabat dövründə ölkədə 1536 şagirdlik 1 ümumtəhsil müəssisəsi, 19 çarpayılıq 1 xəstəxana və 240 yerlik 1 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib.

***“Xalq qəzeti”***

# Erməni vandalların vurduğu yaralar sağaldılır

**Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işləri sürətlə davam edir. 2023-cü ilin yanvar-iyun aylarında Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti-quraşdırma işlərinə 1,7 milyard manata yaxın vəsait xərclənib.**



Bu barədə “X.Q”-yə Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilir ki, bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 674 milyon 645 min manat və ya 67,4 faiz çoxdur. Xatırladaq ki, 2022-ci ilin ilk 6 ayında işğaldan azad olunmuş rayonlarda tikinti quraşdırma işlərinə 999 milyon 879,3 min manat vəsait yönəldilmişdi.

Yeri gəlmişkən, ən çox vəsait Kəlbəcər (344 milyon 611 min manat) , Laçın (328 milyon 972 min manat) və Füzuli (314 milyon 737 min manat) rayonlarına ayrılıb.

***“Xalq qəzeti”***

26 Avqust Laçın Şəhəri Günü

# Laçın yenidən laçınlaşır

(əvvəli 1-ci səhifədə)

**– Arzu xanım, 31 ildən sonra ilk dəfə Laçına ayaq basdınız. Uzun illərdən sonra özünü doğma yurdda görmək necə hissdir?**

– 29 iyul 2023-cü il yaddaşıma ən fərəhli bir gün kimi yazıldı. 31 ildən sonra Laçına ilk ayaq basanda elə bildim ki, yenidən doğulmuşam. Qardaşım Ələsgər rəhmətlik atamızın adını daşıyan oğlu Muxtarı da kişinin ruhunu şad etmək üçün özü ilə gətirmişdi. Ən kiçiyimiz Ələkbər Laçından çıxanda 9 yaşında idi. Beləcə, 2 qardaş, 2 bacı Laçına üz tutduq. Bacım Pərvanə elə yola çıxandan kövrəlmişdi. Axı Laçına gedirdik…

Hava qaralanda çatdıq Laçına... bu yuxu deyil, Laçındayıq gerçəkdən... 31 il sonra Laçına qayıtmaq... Və 31 il sonra yuxudan oyanıb özünü Laçında görmək... Dəli olmaq olar...

Səhərdir. Sübh tezdən sakitcilikdir... Laçının tikinti yerlərində iş başlamayıb. Bir azdan sükut pozulacaq. Səhər yeməyi yemədən şəhərə çıxdıq. Təsəvvür edin uşaqlığınızın izlərini axtarmaq üçün dağılmış, viran qoyulmuş yerlərdə addımlayırsan. Və baxırsan ki, tək deyilsən, bu amacla səhər açılar-açılmaz hamı xarabalıqların içində gəzişir. Bir anlıq özümüzü ruha bənzətdim. Xarabalığı dolaşan ruhlar... Sanki, burada şəhid olanların və Vətən həsrəti ilə dünyadan köçənlərin ruhları da bizimlə idi... Hamı bir-birinə "Xoş gəldin, şükür bu günə,






**– Ata yurdunuz Qovuşuq kəndi sizi necə qarşıladı, babalarınızın evlərini tapa bildinizmi?**

– Sonra ata yurdumuz olan Qovuşuğa getdik. Kəndimizə çatıb maşından düşəndə, ilk uşaqlığımın xoş xatirəsi olan "Qızıl qaya"nı gördüm. Axır ki, orda hönkürtü ilə ağladım. Çaylağa enib qabları su ilə doldura-doldura doyunca ağladım. "Yalın başı" deyilən yerə çıxıb salamat evi də qalmayan kəndimizə baxdıq. Rəhmətlik əmilərimin evlərini ağac, böyük kol-kos basdığı üçün heç yaxınlığına da gedə bilmədik. Kəndin qəbirstanlığını da ziyarət etdik. Vandallar qəbir daşlarını güllələyib dağıtmışdılar. Erməni vəhşiliyi buradan da yan keçməmişdi…

Kənddən Laçına qayıtdıq. İndi içimizdə ümidlərimiz gül açır. Yavaş-yavaş yeni sakinlər evlərinə yerləşirlər. Artıq iki məktəbimiz yeni tədris ilindən fəaliyyətə başlayacaq. Xəstəxanamız, kinoklubumuz, polis şöbəsi, mağazalarımız… Daha nələr, nələr… Canlanır Laçınımız. Yol polislərimizə, hərbçilərimizə qürurla baxırıq. Onlara minnətdarlığımız böyükdür. Şəhərimiz etibarlı əllərdədir. Ordumuza güvəncimiz böyükdür. Belə də olmalıdır. Axı onların başında Ali Baş Komandanımızın qətiyyəti durur.

Bacım Elyanə həyat yoldaşı Etibarla artıq 3 gün idi ki, Laçında idi. Həkəri çayının yanında qarşıladılar bizi…

Düşündüyüm, xəyal etdiyim kimi olmadı… Nədənsə quruyub qalmışdım. Nə torpağa diz üstə çökə, nə hönkürtüylə ağlaya bildim. Laçınla üzbəüz dayanmışdıq, lal-dinməz baxırdıq. Gözümün yaşı yanağıma, acısı içimə süzülürdü...

Mənmi böyümüşdüm, Laçınmı balacalaşmışdı, sanki bir ovcuma sığışdırıb ürəyimə basdım... Həkəri çayının şırıltısı elə bil ki "nə yaxşı gəldin" nəğməsi oxuyurdu. Ətrafımda boğuq hönkürtülər, "şükür bu günə" sözləri bir-birinə qarışmışdı… Laçın isə susurdu... Sanki, onu da qəhər boğmuşdu...






Gecədir... Bacımın baldızı Almazın təzəcə köçdüyü evinin ilk qonaqlarıyıq. 29 yaşında çıxıb, 60 yaşında evinə qayıdan bu qadının gözlərindəki sevinci görməyin özü də bir xoşbəxtlik idi…

Qardaş-bacı təəssüratlarımızı bölüşürdük. Onlara baxdıqca, yaşlandığımızı, sanki, indi hiss etdim...

Elə hey ulduzlara baxıram. Laçında göy üzü heç bir yerdəkinə bənzəmir. Bu gecə isə ulduzlar daha parlaq, səma daha aydın idi. Bu 31 ildə hansı şəhər, kənd, rayonda oldumsa, göy üzünə baxanda deyirdim: "Laçında belə deyil, qapqara göy üzü, çoxlu ulduzları vardı". Bax həmin göy üzünü yenidən görməyin sevincini yaşayırdım...

Dağların ətəyində işıq saçan evlərə baxanda başa düşürsən ki, yox, Allah şəhidlərimizə rəhmət eləsin" deyir. Diqqətlə baxıb "görəsən məktəb yoldaşım, qonşum, qohumum deyil ki" nəzəri ilə bir-birinə gülümsəyən insanların xəyalında 31 il əvvəlin mənzərələri canlanır…

**– Yəqin, Laçında öz doğma evinizə də getdiniz…**

– Birinci evimizə getdik. Yerli-dibli yoxa çıxan evimizə. Ermənilərin bir daşını belə salamat qoymadığı o ocağa. Ağlamaq ovudurmu? Əsla! Hərəmiz öz içimizdə danışırdıq evimizlə. Şəkil də çəkdik, evimizin bu gününü tarixə çevirdik. Hönkürə bilmirdim. Eynən ruh kimi… Balaca bir həyətimiz vardı, Ələsgər balaca olanda öz əliylə ərik ağacı əkmişdi orada. O ərik ağacı bir qocaman ağac olub. Balaca Muxtarımız atasının yadigarı olan ağacı qucaqladı, şəklini çəkdim. İndi hər o şəklə baxanda göz yaşlarımı saxlaya bilmirəm… Sevinirəm, itirdiklərimizi tapdığımız üçün, bizim olan bizə qayıtdığı üçün sevinirəm…

Sonra şəhərin başını da, ayağını da piyada gəzdik. Bu günümüzə şükr etdik. Şəhidlərimizə rəhmət oxuduq… Atamın qardaşıma hədiyyə etdiyi ev yerinə də getdik. Orada samovar qaynatdıq, evimizdəymişik kimi hiss etdik özümüzü. Dualarımızı dilə gətirib dedik: "Allah anamıza da Laçını görmək, burada ömür sürmək qismət eləsin". İnanıram ki, o dağın başındakı yurd yerimizdə qardaşımın balaca Muxtarımıza "atam mənə hədiyyə etmişdi, mən də sənə əmanət edirəm" diləyi yerinə yetəcək…

Böyük inam və ümidlə müvəqqəti məskunlaşdığımız evimizə dönürük. Evə çatan kimi anamı möhkəm-möhkəm qucaqladım: "Hazırlaş, Laçına gedirik" dedim. Onunla olan bir söhbəti xatırladım. Laçın işğaldan azad ediləndə bacım soruşdu ki, sevinirsənmi, qayıdırıq. Əvvəlcə gülümsədi, sonra gülüşü üzündə dondu, dedi: "Kim qalıb ki... "Laçın həsrətiylə dünyasını dəyişən əzizlərimizi nəzərdə tuturdu 75 yaşlı anamız... Hər şeyə rəğmən qayıdırıq...

Gün o gün olsun ki, siz də, ananız da, yurda dönəsiniz.

Laçına köç edən hər maşın karvanını, yerləşdirilən ailələrin, sakinlərimizin sayını izləyirəm. Say artdıqca o balaca Laçınımızın böyüdüyünü görürəm. Nə xoşbəxtəm ki, Laçını yenidən gördük. Nə xoşbəxtəm ki, laçınlıyam. "Laçın kimi qız", "Laçın kimi oğlan", "Laçın vaxtlarım idi" deyimlərinin özü Laçının vəsfidir. Bütün laçınlılar Laçına dönəcəklər.

Xatırladaq ki, avqustun 25-də Laçın şəhəri və iki kənd boşaldıldı. Avqustun 26-da Azərbaycan Ordusu Laçına girdi. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı əsasən, hər il avqustun 26-sı Laçın Şəhəri Günü kimi təntənəli şəkildə qeyd olunur.

*Söhbəti yazdı:*
***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

# "Heydər Əliyev siyasəti: Müasir dövlət quruculuğu"



**Dünən Şəmkir şəhərində bu mövzuda konfrans keçirilib.**

Konfransda çıxış edən Baş Prokurorluğun idarə rəisi Ceyhun Kazımov müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin mövcud iqtisadi inkişafın və hərtərəfli tərəqqinin əldə olunmasındakı rolundan bəhs edib. Heydər Əliyevin müasir dövlət quruculuğu konsepsiyası barədə danışan Ceyhun Kazımov həmin siyasətin bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Konfransda çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev işgüzar tədbirin Şəmkir şəhərində təşkilindən məmnunluğunu ifadə edib.

Tədbirdə, Milli Məclisin deputatı Nurlan Həsənov, Şəmkir rayon prokuroru Azər Hətəmov, Baş Prokurorluğun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Anar Eyvazov və digərləri fenomenal şəxsiyyət Heydər Əliyevin xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi mövzularında danışıblar.

Tədbir iştirakçıları Ulu öndərdən bəhs edən sənədli filmə baxıblar.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"***

# Baş prokurorun Qaxda vətəndaşlarla görüşü



**Avqustun 25-də Baş prokuror Kamran Əliyev Qax Rayon Prokurorluğunun inzibati binasında Qax, Şəki, Balakən, Zaqatala və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**

Görüşdə iştirak edən 25 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Sonra Baş prokuror əməkdaşlarla konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

Həmçinin Baş prokuror Azərbaycan Prezidentinin 2021-ci il 7 may tarixli Fərmanı əsasında yaradılan və Azərbaycan Respublikası prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Müdafiə Nazirliyinin məlumatı



**Avqustun 25-i saat 13:35 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərib.**

Bu barədə "XQ"yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bölmələrimizin sayıqlığı nəticəsində kvadrokopter aşkar edilərək atıcı silahlardan açılan atəşlə məhv edilib.

***

**Bu ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrində döyüş təyyarələri ilə təlim uçuşları həyata keçirilib.**

Bu barədə "XQ"yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Plana uyğun olaraq, havaya qalxma və yerə enmə, kiçik və orta hündürlüklərdə çətin pilotaj manevrləri, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, eləcə də hava kəşfiyyatının aparılması və digər fəaliyyətlər icra olunub.

BEYNƏLXALQ HƏYAT

# “Vaqner”çilər başsız qaldılar...

## *Priqojinin son qərarı səmadan yerə “çırpıldı”*




**Rusiyalı iş adamı, “Vaqner” özəl hərbi şirkətin rəhbəri, 2023-cü ilin iyununda hərbi qiyam cəhdi ilə gündəmə gəlmiş Yevgeni Priqojin bu yaxınlarda bir dəfə ironiya ilə jurnalistlərə demişdi ki, onun sutka ərzində vaxtının çoxu təyyarədə keçir və çox vaxt ən mühüm qərarları da məhz səmada olarkən verir.**

Priqojinin bəd əməlləri barədə xəbərlər gah İraq və Suriyadan, gah da Afrikanın aclıq və terror, dövlət çevrilişləri səbəbilə qara günlərini yaşayan ölkələrindən gəlirdi. Onun qitədə böyük bir brilyant biznesinə sahib olduğu da deyilirdi.

Moskva Priqojinin xidmətlərindən Ukraynada da yararlanmaq niyyətinə düşmüşdü. Məlum olduğu kimi, “Vaqner”in başçısı son aylar ərzində Ukraynanın təkcə Donetsk vilayətindəki Baxmut şəhərini ələ keçirmək üçün, özünün etiraf etdiyinə görə, beş mindən çox silahdaşını qurban vermişdi.

Bəli, Priqojin özəl təyyarəsi ilə planetin vəkalət müharibələri gedən nöqtələrində gözlənilmədən peyda olur, hər yerdə bir-birindən məkrli planlar qurur və qan tökürdü. Üç gün əvvəl, avqustun 23-də axşam saat 18 radələrində Priqojin yenə də səmada idi. Lakin bu, onun artıq son uçuşu idi.

Qlobal medianın gündəminə çevrilən hadisə avqustun 23-də baş verib. Rusiya mənbələrinin yaydığı məlumata görə, axşamçağı paytaxt Moskvadan Sankt-Peterburqa uçan, içərisində 10 nəfər (7 sərnişin və 3 heyət üzvü) olan şəxsi təyyarə paytaxtın şimalında – Tver vilayətinin Kujenkino kəndi yaxınlığında qəzaya uğrayıb. Qəzadan heç kim sağ çıxmayıb. Sərnişinlərdən birinin Priqojin olduğu rəsmən təsdiqlənib.

Qeyd edək ki, Yevgeni Priqojin 1961-ci il iyunun 1-də indiki Sankt-Peterburq şəhərində doğulub. 1979-cu ildə oğurluq ittihamı ilə 2 il müddətinə azadlıqdan məhrum edilib, 1981-ci ildə oğurluq, soyğunçuluq, dələduzluq, yeniyetməni cinayətə cəlb etmək ittihamları ilə 13 il müddətinə həbsə atılıb. 1988-ci ildə cəzası azaldılıb. 1990-cı ildə azadlığa çıxan Priqojin xırda biznesə girişib, sonradan böyük mağazalar və restoranlar şəbəkəsi qurub, həmçinin inşaat sahəsində fəaliyyət göstərib.

UNİAN agentliyi yazır ki, Priqojinin 1990-cı illərin əvvəllərində Sankt-Peterburq hökuməti sədrinin birinci müavini olan Vladimir Putinlə yaxınlığı başlayıb, sonra bu yaxınlıq dostluğa, müttəfiqliyə çevrilib.

Rusiya–Ukrayna müharibəsində Prezident Vladimir Putinin arxalandığı əsas qüvvələrdən biri Priqojinin rəhbərlik etdiyi “Vaqner” özəl hərbi birləşməsi olub. Bu birləşmə ilk dəfə 2014-cü ildə Rusiya Krımı ilhaq edərkən meydana çıxıb, Ukrayna ilə yanaşı, Asiya və Afrika ölkələrində də müxtəlif hərbi-siyasi layihələrə cəlb olunaraq çoxsaylı cinayətlər törədib.

2022-ci ilin sonlarında Priqojinlə Rusiya Müdafiə Nazirliyinin rəhbərliyi arasında münasibətlərin pisləşdiyi açıq müşahidə edilməyə başlanmışdı. 2023-cü il iyunun 24-nə keçən gecə isə Priqojin Rusiya Müdafiə Nazirliyini “Vaqner”in düşərgəsini raket atəşinə tutmaqda ittiham edərək döyüşçülərini qiyama qaldırmışdı.

“Vaqner”çilər Rusiyanın Rostov və Voronej vilayətlərində bir çox məntəqəni nəzarətə götürüb paytaxt Moskvaya istiqamət almışdı. Rusiya Baş Prokurorluğu Priqojinə hərbi qiyam təşkili ittihamı ilə cinayət işi açıldığını bəyan etmişdi. Prezident Vladimir Putin televiziya ilə xalqa müraciətində “Vaqner”in üsyanını dövlətə xəyanət adlandırıb və sərt tədbirlər görüləcəyini demişdi.

Axşam Belarus Prezidenti Aleksandr Lukaşenkonun vasitəçiliyi ilə aparılan danışıqlarda Priqojinə və döyüşçülərinə verilən təhlükəsizlik vədi nəticəsində “Vaqner” geri çəkilib, cinayət işi ləğv olunmuşdu. İyunun 29-da Vladimir Putin Priqojini və “Vaqner”in bir çox komandirini Kremldə qəbul edərək müzakirələr aparmışdı.

Priqojinin ölümünə reaksiyalar birmənalı deyil. ABŞ Prezidenti Cozef Bayden Tver vilayətində baş verən təyyarə qəzasına təəccüblənmədiyini, lakin son saat yarım idmanla məşğul olduğu üçün təfərrüatları bilmədiyini bildirib. Amerika lideri jurnalistlərə açıqlamasında deyib ki, nə baş verdiyini dəqiq bilmir, amma təəccüblənmir.

“Təyyarə qəzasının arxasında Rusiya rəhbərliyinin olduğuna inanırsınızmı?” sualına Bayden belə cavab verib: “Rusiyada Putinin arxasında olmadığı çox az şey var”.

**P.S.** Priqojinin Tver səmasında qəzaya uğraması “Vaqner” yaraqlılarını başsız qoydu. Görəsən, dünya bundan sonra rahat nəfəs ala biləcəkmi?

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

# Tramp zaminə buraxılıb

**ABŞ-nin sabiq prezidenti Donald Tramp həbs edilib və daha sonra girov müqabilində Corciya ştatındakı Fulton həbsxanasından sərbəst buraxılıb. Girov məbləği 200 min dollar təşkil edib. O, təxminən, 20 dəqiqə həbsdə olub, orada onun şəkli də çəkilib, bundan sonra korteji Atlantadakı Hartsfild-Cekson Beynəlxalq Aeroportuna yola düşüb.**

Donald Tramp burada mətbuat üçün bir neçə bəyanat verib. Qanunsuz heç bir şey etmədiyini israr edən sabiq prezident iddiaları “ədalətin parodiyası” adlandırıb.

Xatırladaq ki, Corciya ştatının rəhbərliyi Trampı ştatda 2020-ci ildə keçirilmiş prezident seçkilərinə müdaxilə etməkdə ittiham edir. Tramp ölkənin hazırkı prezidenti Cozef Baydenə uduzduğunu inkar edib və bu ştatda səsvermənin nəticələrinin ləğv edilməsini tələb edib.

Bu arada ABŞ-ın keçmiş prezidenti Donald Tramp seçkiqabağı kampaniyası üçün 72 milyon dollardan çox vəsait toplayıb. Bu, istənilən respublikaçı rəqibinin topladığı vəsaitdən bir neçə dəfə çoxdur. Bu barədə “Bloomberg” agentliyi ABŞ Federal Seçki Komissiyasının məlumatlarına istinadən xəbər yayıb.

Florida qubernatoru Ron Desantis indiyədək cəmi 17,2 milyon dollara yaxın, ABŞ-ın BMT-dəki keçmiş səfiri Nikki Heyli isə 13,9 milyon dollar toplaya bilib. Trampın dövründə ABŞ-ın vitse-prezidenti olmuş Mayk Pens isə cəmi 888 min dollar yığa bilib.

Donorların sayına görə də Tramp liderlik edir – təxminən 450 min nəfər müxtəlif məbləğdə ianələri respublikaçı liderə köçürüb. Ən yaxın təqibçisi Desantisdə bu rəqəm 86 min civarındadır. Eyni zamanda, Tramp kampaniyasına ianə edənlərin 92 faizi prezidentlik yarışının digər iştirakçılarına maddi dəstək göstərməyib.

CBS tenekalı və “YouGov” şirkəti tərəfindən avqustun 16-18-də sorğu keçirilib. Sorğuya görə, keçmiş prezident Trampın Respublikaçılar Partiyasının tərəfdarları arasında mövqeyi ona qarşı irəli sürülən ittihamlar fonunda güclənib. Respondentlərin 62 faizi Trampı prezidentliyə namizəd kimi seçəcəklərini cavablandırıb. İkinci yerdə 16 faiz səslə Florida qubernatoru Ron Desantis qərarlaşıb. Beləliklə, Trampla onun əsas rəqibi arasında fərq 46 faiz təşkil edib. İyul ayı ilə müqayisədə bu göstərici 8 faiz artıb.




Qeyd edək ki, ABŞ-da növbəti prezident seçkiləri 2024-cü ilin noyabrında keçiriləcək. ABŞ-ın hazırkı prezidenti, demokrat Co Byden aprel ayında yenidən seçilmək niyyətində olduğunu açıqlayıb.

***Ə.PÜNHAN, “Xalq qəzeti”***

# BMT-nin Baş katibi BRİCS-in fəaliyyətini təqdir edib

**Cənubi Afrikanın Yohannesburq şəhərində keçirilən BRİCS sammitində çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş geosiyasi parçalanmalar və ədalətsizliyin bəşəriyyəti uçuruma apardığını deyib.**

Baş katib dünyanın ciddi problemlərlə üz-üzə olduğu bir vaxtda iqlim dəyişikliyinin və yoxsulluğun, aclığın və bərabərsizliklərin artmasının qarşısını almaq məqsədilə birgə fəaliyyətə ehtiyac olduğunu vurğulayıb. O əlavə edib: “Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikadan ibarət BRİCS qrupu dünya əhalisinin 40 faizindən çoxunu təmsil edir və eyni zamanda, həmin dövlətlər G20 blokunun üzvləridir. Bu ölkələr qlobal çağırışlara cavab vermək üçün birlik nümayiş etdirə bilər”.

A.Quterreş çoxqütblü dünyaya doğru qlobal keçidi qeyd edərək xəbərdarlıq edib ki, çoxqütblülük təkbaşına dinc və ədalətli status-kvonu təmin edə bilməz. O, bu dəyişikliyi dəstəkləmək üçün möhkəm və effektiv çoxtərəfli institutların olmasını zəruri amil kimi qiymətləndirib. “Qlobal birlik çoxqütblülüyə doğru irəlilədikcə, BMT Nizamnaməsinə və beynəlxalq hüquqa əsaslanan gücləndirilmiş və islahat edilmiş çoxtərəfli arxitekturaya çox ehtiyacımız var və mən bunu qətiyyətlə müdafiə edirəm”, - deyə Baş katib bildirib.

Bugünkü qlobal idarəetmə strukturlarının hələ də müstəmləkə altında olan bir çox Afrika ölkəsi istisna olmaqla, İkinci Dünya müharibəsindən sonra qurulduğuna diqqət çəkən BMT rəhbəri qeyd edib ki, bu qurumların müasir güc dinamikasını və iqtisadi reallıqları əks etdirməsi



mühüm amildir. O xəbərdarlıq edib ki, bu cür islahatlar olmadan parçalanma qaçılmaz olur. A.Quterreş əlavə edib: “Biz bölünmüş qlobal iqtisadiyyat və maliyyə sistemi olan bir dünyada normal yaşaya bilmərik; süni intellekt daxil olmaqla, texnologiyaya dair fərqli strategiyalar, ziddiyyətli təhlükəsizlik çərçivələri potensial təhlükə mənbəyidir. Bu çəkişmələrin ən ağır yükünü isə aşağı gəlirli ölkələr, xüsusən də Afrika dövlətləri daşıyacaq. Mən Yohannesburqa sadə bir mesajla gəldim: böhranlarla dolu parçalanan dünyada əməkdaşlığın alternativ yoxdur".

***“Xalq qəzeti”***

# Dünya Çempionatının iştirakçısı: Bakı Atıcılıq Mərkəzi mükəmməldir

**Bakıda atıcılıq üzrə 53-cü Dünya Çempionatında kişilər və qadınlar arasında 50 metr məsafəyə tapançadan atəş açma yarışlarında qaliblər də müəyyənləşib.**



Kişilərin mübarizəsində qızıl medalı 558 xalla çinli Yu Xie qazanıb. Ondan 1 xal geri qalan Latviyanı təmsil edən Lauris Strautmanis gümüş, 556 xalla hindli atıcı Ravinder Sinq bürünc medala sahib olublar. Kişilərin komanda yarışında Çin birinci, Koreya ikinci, Hindistan üçüncü olub.

Qadınların mübarizəsində qızıl medalı 540 xalla avstriyalı atlet Silviya Şteyner qazanıb. Ondan 6 xal geri qalan Monqolustan təmsilçisi Bayartsetseq Tumurşudur gümüş, 533 xalla hindli atıcı Tiyana Tiyana bürünc medala yiyələniblər. Qadınların komanda yarışında Hindistan birinci, Çin ikinci, Monqolustan üçüncü olub.

“Bakı-2023”ün qalib və mükafatçıları, eləcə də Paris Olimpiadasına lisenziya qazanan atıcılar jurnalistlərə açıqlamalarında ölkələrinə zəngin təəssüratlarla qayıdacaqlarını bildiriblər.

Qızıl medal sahibi Yu Xie dünya çempionatında iştirakçılar üçün hərtərəfli şəraitin yaradıldığını bildirib. O qeyd edib ki, həm fərdi, həm də komanda yarışında qalib olmaq hissi möhtəşəmdir: “Mənim üçün çox həyəcanlı gün oldu. Bir sıra çətinliklər yaşadım. Bu, mənim üçün çox gözəl təcrübə idi. İlk dəfədir dünya çempionatında qızıl medal qazanıram. Buna görə çox sevinirəm. Amma turnirin son günləri olduğu üçün yorğunluq hiss olunur. Eyni zamanda, komanda olaraq da qızıl medal qazandıq. Yarışdan əvvəl üçümüz söhbət edib bir-birimizə dedik ki, qətiyyətli olmalıyıq. Bunun nəticəsi kimi qalib gəldik”.

Stend atıcılığının səngər növündə qadın atletlər arasında qalib adını qazanan Çin Taypeyin təmsilçisi Lin Yi Çun səngər növündə dünya çempionatının ilk qızıl medalını qazandığı üçün hədsiz sevindiyini deyib: “16 yaşından bu idman növü ilə məşğul oluram. Artıq 26 ildir ki, mübarizə meydanındayam. Gələcək hədəfim Olimpiya çempionluğudur. Finaldakı rəqibim Jessika Rossi çox güclü idmançıdır, Londonda keçirilən olimpiadada qızıl medal qazanıb. Ümid edirəm ki, mən də bu uğura imza atacağam. Jessika mənim idealımdır”.

Stend atıcılığının səngər növü üzrə kişilər arasında yarışda qızıl medal xorvatiyalı Ciovanni Çernoqoras dünya çempionatının önəmini qeyd edib: “Bu yarış bizə ona görə vacibdir ki, Paris Yay Olimpiya Oyunlarına lisenziya qazandırır. Ona görə bütün diqqətimi finala yönəltmişdim. Cədvələ baxmırdım. Ancaq komanda yoldaşlarımın səsindən başa düşdüm ki, öndəyəm və qalib olacam. Çox şadam ki, kolleksiyama dünya çempionatının ilk qızıl medalını əlavə etdim”.

İlk dəfə Bakıya 2017-ci ildə Avropa çempionatında iştirak etmək üçün gəldiyini bildirən atıcı qeyd edib ki, paytaxtımızda yarışlar yüksək səviyyədə keçirilir: “Həmin vaxt Bakıda keçirilən qitə çempionatında fərdi yarışda bürünc, komanda olaraq isə gümüş medal qazanmışdıq. Yenidən burada olmaqdan məmnunam. Yarışlar yüksək səviyyədə təşkil olunub. İştirakçılar üçün hər bir şərait yaradılıb. Bakı Atıcılıq Mərkəzi mükəmməldir. Ölkəmizə qalib kimi zəngin təəssüratlarla qayıdacağıq”.

Qeyd edək ki, bu nüfuzlu yarışda 25 metr məsafəyə mərkəzə atəş tapançasından atış növündə təmsilçilərimiz Nigar Nəsirova qızıl, Nərminə Səmədova gümüş medal qazanıb. 25 metr məsafəyə tapançadan standart atəş açma yarışında isə Azərbaycan komandası ikinci yeri tutub.

Yarış sentyabrın 1-dək davam edəcək.

***Leyla QURBANOVA,***
***“Xalq qəzeti”***

# Daha bir dələduz ələ keçdi

**Vətəndaş S.Cabbarova Məhkəmə-Hüquq Şurasına müraciət edərək bildirmişdir ki, Zöhrab Lətif oğlu Paşayev ona qarşı qanunsuz əməllərə yol verib. Zöhrab məhkəmədə işinin həllinə kömək göstərilməsi müqabilində ondan xeyli miqdarda pul alıb. Həmçinin ona Məhkəmə-Hüquq Şurasının və Bakı Apellyasiya Məhkəməsinin adından tərtib olunmuş məktublar təqdim edib. Məsələnin araşdırılması üçün vətəndaşın müvafiq müraciəti və təqdim etdiyi aidiyyəti sənədlər Məhkəmə-Hüquq Şurası Aparatı tərəfindən Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) göndərilib.**

DTX-də aparılmış araşdırmalar zamanı Azərbaycan Respublikasının vətəndaşı, əvvəllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2, 178.2.4 (dələduzluq, təkrar və xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 310 (özbaşına özünün vəzifəli şəxs kimi təqdim edilməsi) və 320.1-ci (rəsmi sənədləri qanunsuz hazırlama) maddələri ilə məhkum edilmiş və məhkumluğu ödənilməmiş Zöhrab Paşayevin 2022-ci ilin noyabr ayından etibarən yenidən özünü vəzifəli şəxs kimi təqdim etməklə ayrı-ayrı vətəndaşlara məhkəmə işlərinin həllinə, adlarına olan əmlakların rəsmiləşdirilməsinə kömək edəcəyi barədə yalan vədlər verməsi, onların inamını qazanmaq məqsədilə xüsusi qaydada QR kodlar hazırlayıb yerləşdirməklə Məhkəmə-Hüquq Şurasının, məhkəmələrin və digər dövlət orqanlarının adından saxta sənədlər hazırlayıb təqdim etməsi və bununla da vətəndaşların pul vəsaitlərini etibardan sui-istifadə etmə və aldatma yolu ilə ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Başlanılmış cinayət işi üzrə Zöhrab Paşayev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2, 178.2.4, 310 və 320.1-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb olunmuşdur.

Dövlət Təhlükəsizliyi Xidmətindən “XQ”yə bildirilir ki, bundan sonra da Məhkəmə-Hüquq Şurasının, məhkəmələrin, habelə hakimlərin adından istifadə edərək qanunsuz əməllərə yol verən şəxslər barəsində zəruri tədbirlər görüləcəkdir.

Eyni zamanda, vətəndaşlara tövsiyə edilir ki, hüquqi yardımın göstərilməsi ilə bağlı yalnız qanunvericiliklə müəyyən olunmuş qaydada həmin fəaliyyətlə peşəkar qaydada məşğul olan şəxslərə və ya qurumlara müraciət etsinlər.

**“Xalq qəzeti”**

Xalqın qəzeti!
# Xalq qəzeti
№ 182 (30298) 26 avqust 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Dünya Oyunlarında 3 medal

**Azərbaycan paracüdoçuları İngiltərənin Birmingem şəhərində keçirilən İBSA Dünya Oyunlarını 3 medalla başa vurublar.**



Yığmamız yarışda 2 gümüş, 1 bürünc mükafat qazanıb.

Kişilərin mübarizəsində İlham Zəkiyev (+90 kq, J1), qadınlarda isə Xanım Hüseynova (70 kq, J2) turniri ikinci pillədə başa vurublar. Digər qadın cüdoçu Şəhanə Hacıyeva (48 kq, J2) isə bürünc medala yiyələnib.

## Paris Olimpiadasına gimnastika üzrə ilk lisenziya



**İspaniyanın Valensiya şəhərində bədii gimnastika üzrə 40-cı dünya çempionatında fərdi proqramda çoxnövçülük üzrə təsnifat yarışları keçirilib.**

Çempionatda ölkəmizi təmsil edən Avropa çempionatının bürünc mükafatçısı, Yay Universiadasının dördqat gümüş və bürünc medalçısı Zöhrə Ağamirova çoxnövçülük yarışlarının nəticəsinə əsasən, 12-ci pillədə qərarlaşaraq Paris Yay Olimpiya Oyunlarına lisenziya qazanıb. İdmançımız bu nəticə ilə, həmçinin çoxnövçülük proqramında dünya çempionatının final mərhələsinə vəsiqəni özü üçün təmin edib.

Qeyd edək ki, bu, Paris Olimpiadasına gimnastika idman növü üzrə qazanılan ilk lisenziyadır.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

## Xocalı idmançısı ikiqat dünya mükafatçısı olub

**Xocalı gənci Talib Zeynalov bu günlərdə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində para-pauerliftinq idman növü üzrə keçirilən gənclər arasında dünya çempionatında uğurla çıxış edib.**




T.Zeynalov +107 kq çəki dərəcəsində gənclərin yarışında 2 gümüş mükafata yiyələnib. O, ən yaxşı nəticəyə (160 kq) və ümumi çəkiyə (307 kq) görə buna nail olub. İdmançımız, eyni zamanda, gənclər arasında Avropa rekordunu da yeniləmiş olub.

Qeyd edək ki, əslən Xocalı rayonundan olan Zeynalov Talib Ramin oğlu 2004-cü il avqustun 23-də Bakı şəhəri Binəqədi rayonunda anadan olub. Bakı Dövlət Universitetinin tarix fakültəsinin üçüncü kurs tələbəsidir.

Xatırladaq ki. Talib Zeynalov bundan əvvəl də uğurlu nəticələr əldə edib. Gənc idmançı Avropa çempionatı və Dünya kuboku yarışında qızıl medal qazanıb.

***Qalib BƏYMƏMMƏDLİ, "Xocalının səsi" qəzetinin redaktoru***

Texnologiya yenilikləri



## Marsda buzlaqlar olubmu?

***Beynəlxalq astronomlar qrupu kosmik elmi araşdırma gəmisi tərəfindən çəkilmiş şəkilləri təhlil edərək Marsda buzlaqların hərəkətinin izlərini aşkar ediblər.***

Alimlərin fikrincə, görüntülər təxminən 4 milyard il əvvəl qədim buzlaqların formalaşmağa başladığı ərazini göstərir. Ümumiyyətlə qəbul edilir ki, həmin dövrdə Marsda daha sıx atmosfer, yüksək temperatur və çoxlu miqdarda su olub.

Fotoda qeydə alınan iz Marsda Yerdə olduğu kimi, buz və buzlaqlararası dövrlərin bir-birini əvəz etdiyini deməyə əsas verir. Buzlaqlararası dövrlərin bir-birini əvəz etdiyi zaman buzlaqlar əriyir və yamaclardan aşağı yuvarlanır, daşları və torpağı udur. Bu proses planetdəki nümunəni alt-üst edir.

Tədqiqatçılar hesab edirlər ki, görüntülər uzaq keçmişdə Marsda çox dinamik iqlimin mövcudluğunu sübut edir.

***Aytən NƏCƏFOVA, "Xalq qəzeti"***

## Süni intellekt 8 milyon insanı işsiz qoyacaq



***İtaliyada süni intellektin artan istifadəsi səbəbindən 8,4 milyon iş yeri risk altında olacaq. Qeyd edilir ki, işçilərin ümumi sayının 36,2 faizinə texnoloji transformasiyaların və avtomatlaşdırma proseslərinin nəticələri təsir edəcək.***

Mütəxəssislərin fikrincə, inkişaf etmiş intellektual və inzibati bacarıq tələb edən peşələrin nümayəndələri ən çox risk altındadırlar. Söhbət xüsusilə IT-mütəxəssislərindən, inzibati və kommersiya menecerlərindən, alim və mühəndislərdən, ixtisaslı dövlət qulluqçularından gedir.

Eyni zamanda, hesabatda işin optimallaşdırılması və yeni texnologiyaların tətbiqi ilə bağlı süni intellektdən istifadənin müsbət tərəfləri də təhlil edilib. Belə ki, İtaliyanın kiçik və orta müəssisələrinin 6,9 faizi artıq robotlardan istifadə edir ki, bu göstərici Avropa orta hesabla 4,6 faiz, Almaniyadakından isə (3,5 faiz) iki dəfə yüksəkdir.

***L.AZAD, "Xalq qəzeti"***

Sosial şəbəkələrdən seçmələr

## Ruhun dincəldiyi məkan...

**"Facebook"da dostluğumda olan Jalə Əhmədova adlı bir xanım paylaşımlarında, adətən, bir-birindən maraqlı fikirlər, mülahizə və düşüncələr səsləndirir. Bəzən isə elə təsirli foto və rəsmlər yerləşdirir ki, onlara baxanda istər-istəməz xəyala dalmalı olursan.**



Dünən J.Əhmədovanın "Facebook"da yerləşdirdiyi bu fotoya xeyli baxdım. Bu gözəl mənzərə bu sözlərlə müşayiət olunurdu: "Çox təəssüf ki, ruhun dincəldiyi yer olduğu halda, zamanın dayandığı yer yoxdur".

Zaman heç nəyə məhəl qoymadan su kimi axıb gedir. Bəlkə də, həyatın gözəlliyi ondadır ki, hələ heç vaxt, heç kəsə zamanı dayandırmaq nəsib olmayıb.

Bu yerdə böyük şairimiz Bəxtiyar Vahabzadənin aşağıdakı misralarını xatırlamamaq olmur:

*"Dağları, daşları qocaldan zaman,*
*Bilmirəm, bəs niyə özü qocalmır?"*

***Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"***

Maraq dünyamız

## Sakit okeanda "Osminoq sürüsü"

**Sakit okeanın Kaliforniya sahillərində dənizin dibini araşdıran tədqiqatçılar qayalıqların arasında yuva salmış Osminoq sürüsü aşkar ediblər.**



Məlum olub ki, onlar bir çox canlılar kimi yuvalarında yumurtalarını qoruyurlar. Osminoqların orada məskunlaşmasına səbəb dənizin dibindən çıxan isti sudur. Bu da onların yeni doğulacaq balalarını daha yaxşı qoruması üçün şərait yaradır.

Osminoq yumşaq bədənli, səkkizayaqlı molyusk növüdür. Səkkizlər, kalamar, platypuslar, nautiloidlər və digər adları olan bu dəniz canlısının, təxminən, 300-ə qədər növü var. Osminoqun iki gözü və bir dimdiyi var. Ağzı qollarının ortasında yerləşir. Formasını çox tez dəyişə bilən yumşaq bədəni sayəsində kiçik dəliklərdən keçə bilir. Suda üzərkən qolları arxasına doğru çarpaz şəkildə uzanır. Səkkiz qol, mürəkkəb sinir sistemi və ələ görmə qabiliyyətinə malik bu dəniz heyvanı onurğasızlar arasında ağıllı davranışları ilə fərqlənir.

Xatırladaq ki, osminoqlar okeanın müxtəlif yerlərində, o cümlədən mərcan riflərində yaşayır. Əksər növlər tez böyüyür, erkən yetişir və qısa ömürlüdür.

***F. SALMANOVA, "Xalq qəzeti"***

## "Sazbəndlik və sazbəndlər"

**"Ozan Dünyası" Aşıq Yaradıcılığının Təbliği İctimai Birliyi "Sazbəndlik və sazbəndlər" adlı layihə həyata keçirir.**



Birliyin sədri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, 4 ay layihə əsasında "Sazbəndlik sənəti və sazbəndlər" adlı kitab nəşr olunacaq. Artıq bu istiqamətdə işlərin əsas hissəsi görülüb. Bir sənət sahəsi kimi, sazbəndlik sənətinin tarixi, sazın hazırlanmasının əsas prinsipləri – alətin hazırlanacağı ağac materialının seçilməsi və emalı, simli musiqi aləti kimi sazın quruluşu və növləri və s. haqqında araşdırmalar aparılıb, bundan başqa, xronoloji ardıcıllıqla tanınmış sazbəndlərin həyat və yaradıcılıqları haqqında lazımi bilgilər toplanılıb.

Ümumilikdə, kitabda bir sənət sahəsi olaraq sazbəndliklə yanaşı, 70-ə yaxın sazbənd haqqında da məlumatın verilməsi nəzərdə tutulur.

***Zülfiyyə ZİYA, "Xalq qəzeti"***

Sağlamlıq

## Berqamot – can dərmanı

**Berqamot çay kimi tanınsa da, əslində, onun sitrus bitkisi olduğunu çoxları bilmir. Bir versiyaya görə, berqamot seleksiya, başqa bir versiyaya görə, portağalın mutasiyası nəticəsində yaranmış meyvədir.**



Bitkiyə bu ad ətrafında plantasiyalar salınmış Berqamo şəhərinin şərəfinə verilib. Bu ağac 10 metr hündürlüyə qədər uzanır, budaqları tikanlı olsa da, çiçəklərinin gözəl görünüşü və olduqca xoş ətri var. Meyvələri payızın əvvəlindən qışa qədər yetişir. Yaşıl rəngli meyvəsinin eninə kəsiyi limon və ya portağala oxşayır. Meyvənin qabığından başqa çiçək, yarpaq və zoğlarından da efir yağı almaq olur.

Berqamot virus və soyuqdəymə əleyhinə olub immun sistemini möhkəmləndirir, mədə-bağırsaq spazmını azaldır, həzmi yaxşılaşdırır, sinir sisteminə sakitləşdirici təsir göstərir.

***Z.HÜSEYNLİ, "Xalq qəzeti"***

Proqnoz

## Arabir yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, avqustun 26-da Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.

Gecə yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Səhər tədricən kəsiləcək. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 20-24°, gündüz 26-29° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu , nisbi rütubət gecə 75-85 , gündüz 50-60 faiz olacaq. Abşeron yarımadasının dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 27-32°, dağlarda gecə 10-15°, gündüz 17-22° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

## "YouTube" zümzüməni anlayacaq



**"YouTube" yaxın gələcəkdə istifadəçilər üçün yeni axtarış sistemini təqdim edəcək. Bu yeni funksiya istənilən mahnını zümzümə edərək tapmaqdan ibarətdir.**

"Shazam" musiqi proqramına bənzəyən bu sistem vasitəsilə, ən azı, 3 saniyə zümzümə edərək axtardığınız mahnını tapa biləcəksiniz. Sınaq mərhələsində olan bu proqramın istifadəçilər üçün nə zaman əlçatan olacağı isə hələ məlum deyil.

***F. HÜQUQQIZI, "Xalq qəzeti"***

### ALLAH RƏHMƏT ELƏSİN

Qax Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin rəhbərliyi və kollektivi "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB-in) icraçı direktoru Vüqar Qurbanova qayınatası

**ARİF HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4868
SİFARİŞ 2124
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır 00:00